04_27 IYUl-QARA.qxd 1/31/2025 12:02 AM Page 1


# UNİKAL

№04 (2234) 31 yanvar 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Ankara Bəyannaməsi Azərbaycan üçün yeni strateji hədəfləri müəyyənləşdirir




Səh.8

## Azərbaycan XİN-dən fransalı nazirə cavab

*Təəssüf edirik ki, 29 yanvar 2025-ci il tarixində Senatda müzakirələr zamanı Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baro növbəti dəfə Azərbaycanın Fransanın dənizaşırı ərazilərinə qondarma müdaxiləsi ilə bağlı iddialar yaymağa cəhd edib. "Unikal" xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baro tərəfindən Azərbaycanın Fransanın dənizaşırı ərazilərində müdaxilə ilə bağlı Fransa Senatında səsləndirdiyi iddialara dair şərhində əksini tapıb. "Fransanın xarici işlər naziri Jan Noel Baronun Azərbaycanı dənizaşırı ərazilərə müdaxilədə ittiham edən şərhi Fransanın Yeni Kaledoniya yerli əhalisinin...*

Səh.2

## "2025-ci il böyük sosial paketin icra olunduğu il olacaq"



*Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, maaş, pensiya artımlarından sonra ərzaq qiymətlərinin yüksəlməsindən, özəl pensiya fondlarının hansı üstünlüklərinin olmasından, vəfat edən şəxslərin pensiya kapitalının ailə üzvlərinə ödənilməsi məsələsindən və dünyasını dəyişən...*

Səh.4

## Ətin bahalaşmasında məmur izləri...



*2024-cü ildə dünya bazarında mal ətinin 1 kiloqramının orta qiyməti 6,2 dollar (10.5 manat) olub. Qoyun əti 9.6 dollar (16.3 manat), quş əti isə 3.9 dollara (6.63 manat) təklif olunub. Bu barədə Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin bülletenində bildirilib.*

Səh.8

## Seçkilərdə bələdiyyələr üzrə lider namizədlər açıqlandı



*Bələdiyyə seçkilərində bələdiyyələr üzrə lider namizədlər açıqlanıb. "Unikal" xəbər verir ki, lider namizədlərin siyahısı Mərkəzi Seçki Komissiyasının saytında yerləşdirilib. Qeyd edək ki, bələdiyyə seçkiləri 118 dairəni, 685 bələdiyyəni əhatə edib.*

Səh.4

04_27 IYUI-QARA.qxd 1/31/2025 12:03 AM Page 2



# "Aygün Kazımova üçün Hollivudu İstanbula gətirdik"



***Xalq artisti Aygün Kazımovanın "Etiraf" klipinin rejissoru Selim Akar ekran işinin çəkildiyi anları bölüşüb.***

Axşam.az xəbər verir ki, rejissor Pop kraliça ilə işbirliyinin pərdəarxası məqamlarından danışıb: "200 nəfərin çalışdığı böyük bir prodakşınla Aygün Kazımovanın "Etiraf" mahnısının klipini çəkdik. Onun bütün Azərbaycan xalqının ürəyinə toxunan həyat hekayəsi və zirvəyə gedən yolunu bu klipdə təsvir etmək böyük bir xoşbəxtlikdir. Arxa plandakı böyük enerjimi təsəvür etdirən bu layihədə Aygün Kazımovanın daxili aləminin etirafını musiqili təqdim etdik. Bu, sadəcə mahnı deyil. Bu, sənətçinin ruhunun dərinliklərinə gedilən bir səyahətdir. Klip Hollivud texnologiyalarının İstanbula gətirildiyi və tək dubla çəkilən bir layihədir. Varol Şahinin sayəsində hər səhnə bir sənət əsərinə çevrildi. Onun əvəzsiz baxış bucağı izləyiciyə təsir edən bir bayram ab-havası yaratdı. Bu əsər Aygün Kazımovanın zirvəyə gedən, duyğulu, səyahətinin bir əksidir. Hazır olun. Çünki bu sadəcə bir mahnı deyil, bir əfsanənin zirvəyə yüksəlişidir. Film kimi çəkildi, peşəkar aktyorlar iştirak gətirdi. Hollivudu İstanbula gətirdik".

Makiyaj ustası Andre Şihan isə A.Kazımovanın yağış altında çəkilən fotosundan bəhs ecib. O bildirib ki, şəkil səhər saat 7:30-da, gecə səhərə qədər çəkiliş edildikdən sonra, soyuq havada lentə alınıb.

# "Hansısa tütək çalan sənətimə qiymət verə bilməz"



***Bir müddət öncə müğənni İntiqam Kərimov həmkarı Vəfa Şərifovanın "Dilbərim"i oxumağını təriflərək "Heç bir opera müğənnisi bunu belə təmiz ifa etmir", - deyə bildirib.***

Müğənni bu sözlərinə görə sosial şəbəkələrdə tənqid hədəfinə çevrilib. Onu tənqid edənlərdən biri də klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu olub: "Onun belə danışmağı düzgün deyil. İntiqam müəllim, siz bu günə kimi nə oxumusunuz? Siz Aygün Bəylər, Elçin Cəlilovun müəllimi olsanız, nə edərdiniz? Onların bir faizini oxumursunuz... O ki qaldı opera ifaçılarına..."

İntiqam Kərimovun cavabı isə gecikməyib. "Gün ortası" verilişinə zəng edən müğənni deyib: "Hansısa tütək, klarnet çalan sənətimə qiymət verə bilməz. Heç onu tanımıram. Mən "Sevil", "Balaş" oxumuşam".

Daha sonra Hüseyn verilişə telefonla bağlanaraq bu sözləri söyləyib: "Böyük Məşədi Məhəmmədin oğluyam. Rafiq Babayevlə 4 ifası İntiqam Kərimovun bütün həyat və yaradıcılığından artıqdır. O ki qaldı savada, 3 diplomum var, magistraturanı bitirmişəm. Hansısa restoranda yox, Londonda salonda konsert vermişəm".



# Miri Yusif həmin şəxsi bağışladı

***Xalq artisti Miri Yusifin prodüseri Emin Əfəndini onun videolarını yayacağı ilə şantaj edən şəxs ilə bağlı ilkin iclas keçirilib.***

Axşam.az xəbər verir ki, ilkin iclasda Miri Yusif və Emin Əfəndi sözügedən şəxsi bağışlayıb.

Qeyd edək ki, yanvarın 19-u naməlum şəxs vatsap vasitəsilə Emin Əfəndiyə mesaj yazaraq Miri Yusifin videolarını yayacağı ilə hədələyib və pul tələb edib. Daxili İşlər Nazirliyinin operativ reaksiyası nəticəsində sözügedən şəxs qısa zamanda polis tərəfindən saxlanılıb.

# "Göz yaşlarımı ürəyimə axıtmışam"

***"O qədər hiss elədim ki, bütün ağrınızı, acınızı, bütün yaşadıqlarınızı... Keçdiyiniz sənət yolu hər birimizə bir sənət adamı kimi o qədər doğmadır ki...".***



Bu sözləri müğənni Elnarə Xəlilova Xalq artisti Aygün Kazımovanın "Etiraf" klipi ilə bağlı fikirlərini yazarkən qeyd edib. Sənətçi sözlərini belə davam edib:

"Hər birimiz ən azı bir dəfə o hissləri keçirmişik. Çünki boğazımızda qəhər düyünlənərkən o qədər ürəyimizə axıtmışıq ki,o göz yaşlarımızı. Axı bu gün sizin doğum gününüzdür: qəm-qüssə, kədər yox, yalnız sevinc və xoşbəxtlik yaraşır. Son vaxtlar hansısa mahnıya belə ağladığımı xatırlamıram. Dosta sadiq qalmaq mənim də hər zaman yaralı yerim olub. Əksər vaxtlar da yarımamışam dost sarıdan. Hamımız qonağıq bu dünyada. Mühüm olan necə yaşamağımızdır, neçə yox. Siz dünya durduqca sənətinizdə yaşayacaqsınız. Onsuz da Allah sizə uzun ömür, can sağlığı versin təki. Sənətimizdən əskik olmayasınız heç bir zaman. Heç yerə getməyin bu diyarda,n xahiş edirəm, biz sizi çox sevirik".

# Reanimasiyaya yerləşdirilən Xalq artistinin səhhəti necədir?

***Ötən gün xəstəxanaya yerləşdirilən Xalq artisti Fatma Mahmudovanın son vəziyyəti açıqlanıb.***



Aktrisanın səhhəti stabil olaraq qalır. Bu barədə Fatma Mahmudovanın qızı bildirib. "Hazırda reanimasiyadadır. Səhhəti stabildir. Ümid edirik həkimlər, tez zamanda bizə yaxşı xəbərini verərələr" -deyə o, qeyd edib.

Xatırladaq ki, ötən gün beyin insultu keçirən Xalq artisti təcili olaraq xəstəxanaya gətirilib və reanimasiyaya yerləşdirilib.

O daha əvvəl də eyni diaqnozla xəstəxanaya yerləşdirilib.(BAKU.WS)

04_27 IYUI-QARA.qxd 1/31/2025 12:03 AM Page 3



# Ətin bahalaşmasında məmur izləri...

## Ölkədə iri və kiçik baş heyvanların sayındakı azalmada kimlər günahkardır? - İlginc təfərrüatlar

***2024-cü ildə dünya bazarında mal ətinin 1 kiloqramının orta qiyməti 6,2 dollar (10.5 manat) olub. Qoyun əti 9.6 dollar (16.3 manat), quş əti isə 3.9 dollara (6.63 manat) təklif olunub. Bu barədə Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin bülletenində bildirilib.***

Məlumat ABŞ-nin Kənd Təsərrüfatı Nazirliyinin 10 yanvar 2025-ci il tarixli hesabatı əsasında hazırlanıb.

İndi Azərbaycanda ətin mövcud qiymətinə baxaq və bu rəqəmləri orta dünya qiymətləri ilə müqayisə edək:

Mal əti -16-17 manat (9.4, 10 dollar)

Qoyun əti - 21- 22 manat (12.3, 13 dollar)

Quş əti - 6.8-8 manat (4, 4.7 dollar).

Beləliklə:

Mal əti dünya qiymətlərindən 3-3.4 dollar;

Qoyun əti 2.8-3,4 dollar;

Quş əti isə 0,8 dollar bahadır.

Azərbaycanda minimum əməkhaqqı 400 manat (235 dollar), orta aylıq maaş 996 manatdır (585 dollar).

### Paradoks: xaricdən idxal edilən ət uzuclaşıb, amma...

“Azpolitika” bir müddət əvvəl yazıb ki, Azərbaycan ətə olan tələbatının əhəmiyyətli hissəsini idxal hesabına təmin edir. Belə ki, Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycana dəyəri 116 milyon 989 min dollar həcmində 53 min 337 ton ət idxal edilib. Ət idxalı 2023-cü ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 38 milyon 433 min dollar və ya 48,9% artıb, miqdar ifadəsində isə 15 min 50 ton, başqa sözlə, 39,3% artıb.

Xatırladaq ki, 2023-cü ilin ilk 11 ayında isə Azərbaycana 78 milyon 555 min dollar dəyərində 38 min 287 ton ət idxal edilmişdi.

Qeyd edək ki, bu ilin yanvar-noyabr aylarında idxal edilən ətin 1 kiloqramının orta dəyəri 3 manat 72 qəpik olub. 2023-cü ilin eyni dövründə isə bu rəqəm 3 manat 49 qəpik idi. Bu da illik müqayisədə 23 qəpik və ya 6,59% artım deməkdir. Ötən il ümumi idxalın 0,62%-i ətin payına düşüb.

Dövlət Gömrük Komitəsinin məlumatından daha bir paradoksal məlumat üzə çıxır. Qeyd olunur ki, ölkəyə gətirilən ətin orta dəyəri 3 manat 72 qəpik olub. Bu, 2023-cü ilin idxal qiymətindən 23 qəpik azdır, yəni ucuzlaşma baş verib. O zaman Azərbaycanda ətin qiyməti hansı səbəbdən göstərilən rəqəmlərdən 5-6 dəfə yüksəkdir? Xaricdən idxal edilən ət ucuzlaşıbsa, nəyə görə, Azərbaycanda bir il ərzində mal və qoyun ətinin qiymətində 3-4 manat artım olub?

Təəssüf ki, Kənd Təsərrüfatı Nazirliyi dünyada ərzaq qiymətlərinin müqayisəli təhlilini aparıb ictimaiyyətə təqdim etsə də, Azərbaycan bazarındakı qiymət bahalığının səbəblərinə toxunmayıb.

### SOS! Heyvanların baş sayında azalma davam edir

İqtisadçı ekspert Vahid Məhərrəmli Statistika Komitəsinin məlumatındakı fərqliliklərə diqqət çəkib. “Bu məlumatlara əsasən ötən ilin yanvar-iyun aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə ölkədə ət istehsalı diri çəkidə 4 min 900 ton, ət idxalı isə təmiz çəkidə 5 min tondan çox artıb. Belə olan halda sual yaranır: necə olur ki, təklif bu qədər artdığı halda, ölkədə ət və ət məhsulları son bir il ərzində davamlı olaraq bahalaşır? Əhalinin alıcılıq qabiliyyəti aşağı olan bir ölkədə bu necə baş verə bilər”, - iqtisadçı sual edir.



Ət istehsalının azalmasının səbəblərinə gəlincə, Vahid Məhərrəmov düşünür ki, örüş sahələrinin əkinə verilməsi, istiləşmə nəticəsində bir sıra örüşlərin ot örtüyündən məhrum olması və ölkədə ot istehsalının azalması heyvandarlığa mənfi təsir göstərib: ”Məhsuldarlıq, heyvanların baş sayı azaldı. Nəticədə ət istehsalı azalır, idxal artır”.

Ekspertin sözlərinə görə, artıq ölkədə heyvandarlıq sıradan çıxmaq üzrədir. ”Onsuz da Azərbaycan özünün ətə tələbatının 38-40 faizini daxili istehsal hesabına ödəyirdi, indi bu rəqəm ondan da az olacaq”, - o, bildirib.

V.Məhərrəmovun fikrincə, əkinə verilən örüş ərazilərini indi bərpa etmək mümkün deyil: ”Heç olmasa, həmin ərazilərdə indi kütləvi yem istehsalı ilə məşğul olmaq lazımdır ki, ölkədə daha çox yem istehsal olunsun. Ölkədə hələ 2008-ci ildə nəzərdə tutulmuşdu ki, 2 milyon 500 min ton qüvvəli yem istehsal olunsun, amma hələ də bu hədəfin 10 faizinə belə çata bilinməyib”.

### Məmur tamahkarlığı və... yarıtmazlığı!

Başqa bir iqtisadçı - Zöhrab İsmayıl isə özünün “facebook” hesabında yazıb ki, 2024-cü ildə Azərbaycanda iri və xırda buynuzlu heyvanların sayında azalma davam edib: “İl ərzində qoyun və keçilərin sayı 7 milyon 60 mindən 6 milyon 850 minə, iri buynuzlu mal-qaranın sayı isə 2 milyon 508 mindən 2 milyon 460 minə düşüb. Ümumiyyətlə, bu sahədə geriləmə 2016-cı ildən başlayıb”. Ekspert vurğulayıb ki, proses səngiməyib: “Həmin il ölkədə 8 milyon 677 min qoyun-keçi, 2 milyon 708 min iri buynuzlu heyvan olub, eyni tarixdən bəri qoyun-keçilərin sayı 19 faiz, mal-qaranın sayı isə 9 faiz azalıb”.

Bəs bu xoşagəlməz tendensiyanın səbəbi nədir?

Bir çox mütəxəssislər belə düşünür ki, ölkədə heyvandarlığın zəifləməsində bir sıra məmurların ciddi rolu var. Onların fikrincə, ilk növbədə məmurların bölgədə iri torpaq sahələrini, əsasən də otlaqları zəbt etməsi, onları təyinatdan kənar istifadə etməsi rayonlarda heyvandarlıqla məşğul olan sadə vətəndaşları, kiçik fermerləri çətin vəziyyətdə qoyub.

Problemin miqyası o həddə çatıb ki, iki il öncə ölkə başçısı bu məsələyə xüsusi toxunmuşdu. “Müasir aqrotexniki tədbirlərin görülməsi, tətbiq edilməsi şərtilə heyvandarlıq, bitkiçilik rayonların xüsusiyyətlərinə görə inkişaf etməlidir. Bununla bağlı olan çox ciddi məsələ torpaqlardan səmərəli istifadə edilməsidir. Əfsuslar olsun ki, əvvəlki illərdə bəzi dövlət məmurları və bəzi sahibkarlar tərəfindən böyük torpaq sahələri hasarlanmışdır, qanunsuz zəbt edilmişdir. Kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlarda ya evlər tikilmişdir, ya da ki, sadəcə olaraq, o sahələr hasarlanıb kiminsə mülkiyyətinə çevrilmişdir. Biz bu məsələni bu yaxınlarda ciddi araşdırmağa başladıq və gördük ki, burada çox böyük pozuntular var. Vəzifəli şəxslər yerli icra orqanlarının nümayəndələrinə göstəriş verirdilər ki, o torpağı mənə ver, bu torpağı mənə ver. Beləliklə də torpaq fondu azalırdı və torpaqların qanunsuz zəbt edilməsi prosesi əfsuslar olsun ki, geniş vüsət almışdır” - deyə dövlət rəhbəri bildirmişdi.

Prezident eyni zamanda xəbərdarlıq etmişdi: “Azərbaycan ərazi baxımından o qədər də böyük ölkə deyil. Bizim üçün hər qarış torpaq qiymətlidir, dəyərlidir və torpaqdan insanlar istifadə etməlidirlər. Fermerlər, kəndlilər məhsul yetişdirmək üçün istifadə etməlidirlər”.

2023-cü ildə məlum olmuşdu ki, son 10 ildə ölkədə əkin sahələri əsasən otlaq, biçənək yerlərinin hesabına 190,2 min hektar (1 milyon 855 hektardan 2 milyon 45,2 min hektara), çoxillik əkmələrin sahəsi isə 41,8 min hektar artıb. Otlaq, biçənək yerləri on ildə 217,6 min hektar azalıb. Bu isə ölkədə heyvandarlığın inkişafına mənfi təsirini göstərib. Eyni zamanda böyük şirkətlər, vəzifəli şəxslər tərəfindən ələ keçirilən və boş saxlanılan min hektarlarla torpaq sahəsi də ölkədə kənd təsərrüfatının inkişafını ləngidən mühüm amillərdən biridir.

Və nəhayət, Azərbaycanda heyvandarlığın inkişafı dövlətin xüsusi diqqətindədir, bu məqsədlə böyük vəsaitlər ayrılır, lakin həmin vəsaitlərin təyinatı üzrə, səmərəli xərclənməsinə dair şübhələr var. Bir çox məmurların bu pulların əhəmiyyətli hissəsini havaya sovurmadığına, yeyinti predmetinə çevirmədiyinə kimsə təminat verə bilməz. Əks halda təxminən 10 ilə yaxındır ölkədə iri və xırda buynuzlu heyvan sayında azalmanın davam etməsinə məntiqli izah tapmaq mümkün deyil.

Bir sözlə, bəzi vəzifəli şəxslərin yarıtmaz fəaliyyəti, bir sıra məmurların isə tamahkarlığı həm ölkədə heyvandarlığın ciddi geriləməsini, həm də ətin sadə vətəndaş üçün get-gedə əlçatmaz məhsula çevrilməsini şərtləndirib. Hökumət bu istiqamətdə təcili və köklü addımlar atmasa, sözügedən tendensiya daha da güclənə, həlli müşkül hal ala bilər...

***Toğrul Əliyev***

04_27 IYUI-QARA.qxd 1/31/2025 12:05 AM Page 4



# Ankara Bəyannaməsi Azərbaycan üçün yeni strateji hədəfləri müəyyənləşdirir

***Xəbər verildiyi kimi, Ankarada Türkiyə, Azərbaycan və Özbəkistan arasında II üçtərəfli görüş keçirilib. İclasda üç ölkənin xarici işlər nazirləri ilə yanaşı, iqtisadiyyat və nəqliyyat nazirləri də iştirak edib. Daha sonra görüşün yekunlarına dair Ankara Bəyannaməsi qəbul olunub və imzalanıb.***

Bəyannamədə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərlə bağlı əməkdaşlığın inkişaf etdirilməsi, habelə suverenlik və ərazi bütövlüyü əleyhinə atılan addımlara qarşı birgə fəaliyyətə dəstək ifadə olunub. İqtisadiyyat, ticarət, investisiyalar, logistika, infrastruktur, rəqəmsallaşma, ətraf mühit və iqlim dəyişikliyi ilə mübarizə istiqamətləri üzrə mövcud potensialdan tam istifadə olunması, bu istiqamətdə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın, xüsusilə Orta Dəhlizin səmərəliliyi və rəqabətədavamlılığının artırılmasının vacibliyi qeyd olunub. Bəyannamədə, həmçinin Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgələrində yenidənqurma və humanitar minatəmizləmə fəaliyyətinə töhfə verilməsinin əhəmiyyəti vurğulanıb.

Ankara Bəyannaməsi, eyni zamanda Azərbaycanın COP29 və AQEM sədrlikləri çərçivəsində oynadığı rolu təqdir edib. Mərkəzi Asiyanın təhlükəsizliyində vacib rol oynayan Əfqanıstanın təhlükəsizliyi və inkişafı ilə bağlı Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq mövqenin formalaşdırılmasının, Qəzza bölgəsində əldə olunmuş atəşkəsin qorunub saxlanılmasının və İsrail-Fələstin münaqişəsinin “iki dövlət prinsipi” əsasında həllini tapmasının vacibliyi qeyd olunub.

Mövzu ilə bağlı ”Unikal”a açıqlama verən deputat, Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Aydın Mirzəzadə bildirib ki, üç türk dövləti birgə müəyyən qrup məsələləri müzakirə edirlər:

”İlk dəfədir ki, məhz Azərbaycan, Türkiyə və Özbəkistan rəsmiləri nəqliyyat, ticarət və digər məsələlərlə bağlı bir araya gəldilər. Şübhəsiz ki, burada söhbət təkcə nəqliyyatdan getmir. Qardaş ölkələr kimi birgə mövqe nümayiş etdirmək, birgə planları müzakirə etmək və gələcək üçün müəyyən perspektivlər qurmaq məsələləri də gündəmdə idi. Bu, Türk dünyası birliyi faktorunu daha da gücləndirir. Prezidentin bir il bundan əvvəl ”Bizim ailəmiz türk dünyasıdır və bizim başqa ailəmiz yoxdur” deməsi bir daha öz təsdiqini tapır”, - deyə deputat qeyd edib.

A.Mirzəzadə əlavə edib ki, hər üç ölkə Orta dəhliz adlanan nəqliyyat layihəsinin tərkib hissəsidir: ”Bu üç ölkə olmadan Orta dəhliz işləyə bilməz. Çindən Avropaya qədər gedən bu dəhliz ətrafında yerləşən hər bir ölkə üçün böyük perspektivlər vəd edir. Azərbayca, Türkiyə və Özbəkistan bu məsələdə öz imkanlarını və resurslarını birləşdirir. Burada kooperasiya və qarşılıqlı surətdə investisiyanın yatırılması böyük əhəmiyyət daşıyır. Xatırladım ki, Azərbaycan və Özbəkistan arasında 500 milyon dollarlıq birgə investisiya fondu mövcuddur. Bu fond artıq həm Azərbaycanda, həm də Özbəkistanda bir sıra layihələr həyata keçirir. Azərbaycanın Türkiyə iqtisadiyyatına qoyduğu investisiya 20 milyard ABŞ dolları həcmindədir və bu rəqəm durmadan artır.

Üç ölkənin nazirlərinin görüşü bu günə və sabaha olan planları müzakirə etməyə və ümumi razılığa gəlməyə səbəb olur. Hesab edirəm ki, bu görüş həm siyasi, həm də iqtisadi baxımdan çox əhəmiyyətlidir. Hər üç ölkənin ictimaiyyəti və mətbuatı bu görüşün xüsusi əhəmiyyətini bir daha görür və qiymətləndirirlər”.




Milli Cəbhə partiyasının başqanın müavini, siyasi ekspert Məhəmməd Əsədullazadə hesab edir ki, Üçtərəfli Ankara Bəyannaməsi yeni hərbi paktın formalaşmasına gətirib çıxaracaq: Azərbaycan, Türkiyə və Özbəkistan Ankara Bəyannaməsi imzaladı. Bu üç türk ölkəsinin birgə Bəyannaməsi iqtisadi-siyasi əməkdaşlığı ehtiva edir. Hər üç ölkə növbəti mərhələdə üçtərəfli müttəfiq bəyannaməsi imzalaya bilər. Həmçinin Türkiyə Azərbaycan və Mərkəzi Asiya Türk ölkələri ilə birgə hərbi əməkdaşlıq paktı da imzalaya bilər. Yeni dünya siyasi nizamında Ankaranın çevik və strateji hədəfləri yeni hərbi pakt qurulmasıdır. Türkiyə, Yaxın Şərq, Cənubi Qafqaz və Mərkəzi Asiya regionunun geosiyasi mövqelərini gücləndirərək əsas təsir zonasını formalaşdırır. Məhz Rusiya və İranın Azərbaycana təzyiqləri Türkiyə ilə birgə kordinasiyalı şəkildə siyasət aparmasından irəli gəlir. Növbəti mərhələdə Zəngəzur dəhlizinin açılması reallaşacaq. Regional şərtlər və Ankaranın təzyiqləri Yerevanın geri addım atması ilə nəticələnə bilər. Ermənistan Avropa İttifaqının mülki missiyasının mandatını uzatmasına baxmayaraq regionda proseslər Ankara-Bakı tandeminin formalaşdırdığı siyasətindən asılı olacaq”.

Siyasi şərhçi Aqşin Kərimov isə bildirib ki, Azərbaycan, Türkiyə və Özbəkistanın imzaladığı Ankara Bəyannaməsi yeni Avrasiya geosiyasətində yaranan tendensiyaları qiymətləndirir. Onun fikrincə, həmin tendensiyalar əsasən Orta Dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyəti ilə formalaşır: “Orta Dəhliz Türk Dövlətləri Təşkilatına daxil olan ölkələri, o cümlədən Azərbaycan, Türkiyə və Özbəkistanı geosiyasət əsasında çevik təhlükəsizlik yanaşmalarına təşviq edir.

Ankara Bəyannaməsində:

- Orta Dəhliz mövzusuna xüsusi diqqət ayrılması,
- Bu Marşrutun potensialının və rəqabət qabiliyyətinin artırılmasına töhfə verəcək yeni layihələrin həyata keçirilməsinin vacibliyinin vurğulanması geosiyasi baxımdan dəyişən dizaynda Azərbaycan, Türkiyə və Özbəkistanın üçtərəfli roluna da işarələr edir.

Bu Dəhlizə Çin “Bir kəmər, bir yol” təşəbbüsünün davamı kimi yanaşmaqla ABŞ və Rusiya təsirlərini tarazlaşdırmaq vasitəsi kimi baxır, hərçənd ki, Vaşinqtonun müttəfiqi Avropa İttifaqı Pekin mərkəzli bu layihəyə dəstək verir.

Türk Dövlətləri Təşkilatı bu rəqabətqarışıq əməkdaşlıqların çərçivəsində özünün geosiyasi mövqeyini artırmaq üçün təhlükəsizlik, siyasi və mədəni əlaqələrindən istifadə edir”.

***Murad İbrahimli***



## Zakir Həsənov Bəhreyn Müdafiə Qüvvələrinin Baş komandanı ilə görüşüb

***Yanvarın 30-da müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanda işgüzar səfərdə olan Bəhreyn Krallığının Müdafiə Qüvvələrinin Baş komandanı feldmarşal Şeyx Xəlifə bin Əhməd əl-Xəlifə ilə görüşüb.***

“Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

Qonağı salamlayan general-polkovnik Z.Həsənov onu ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Müdafiə naziri Bəhreyn Krallığı tərəfindən göstərilən humanitar yardıma, eləcə də Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi dövründə beynəlxalq təşkilatlarda dəstəyinə görə minnətdarlıq ifadə edib.

Feldmarşal Şeyx Xəlifə bin Əhməd əl-Xəlifə səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib. İkitərəfli əməkdaşlığın inkişaf etdirilməsində qarşılıqlı səfərlərin vacibliyini xüsusi vurğulayıb.

Görüşdə hərbi, hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və daha da genişləndirilməsi, eləcə də regional təhlükəsizlik məsələləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

## Paşinyan onu İrandan geri çağırdı

***Vardan Kostanyan Ermənistan Respublikasının İrandakı ticarət attaşesi vəzifəsindən azad edilib.***

”Unikal” xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Qərarı Ermənistanın baş naziri Nikol Paşinyan imzalayıb.

***Ağarza Elçinoğlu***

## Bakı QHT-ləri bütün qrantları udurlar - Deputat narazıdır

***“Regionlarda QHT-lərin, xüsusilə gənclər təşkilatlarının sayında azalmalar var”. Bunu millət vəkili Naqif Həmzəyev Milli Məclisin Gənclər və idman komitəsinin “Azərbaycan Respublikasının Gənclər Fondunun 2024-cü ildə fəaliyyəti haqqında hesabat”ının müzakirəsində bildirib.***



“QHT-lərin böyük əksəriyyəti Bakı şəhərinə cəmləşib, ya da Bakıətrafı ərazidədir. Vaxtilə Gəncədə 50-yə yaxın gənclər təşkilatının adını çəkə bilirdiksə, bu gün bu rəqəm 3-4-ə düşüb. Bu, Gəncə kimi şəhərdə belədirsə, digər bölgələrdə vəziyyət necədir bilmirəm.

Regionlarda gənclər təşkilatlarına qrantların verilməsi ənənəsini bərpa etməliyik. Bakı QHT-ləri bütün qrantları udurlar, bütün proseslərdə ön cərgədədirlər. Region gəncləri isə zəifləyirlər.

Gənclərin ən böyük problemi həm də mənzil məsələsidir. Biz ipoteka ilə bağlı qanunda dəyişiklik etməliyik. Gənclər sektorunda çalışan gəncləri də güzəştli ipoteka ilə mənzil əldə edənlərin siyahısına əlavə etməliyik”, - deyə deputat qeyd edib.

04_27 IYUl-QARA.qxd 1/31/2025 12:06 AM Page 5



# İlham Əliyev Trampa başsağlığı verdi



***Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa başsağlığı verib.***

"Unikal" xəbər verir ki, başsağlığında deyilir:

"Hörmətli cənab Prezident, Vaşinqton şəhəri yaxınlığında sərnişin təyyarəsinin hərbi helikopter ilə toqquşması nəticəsində çox sayda insanın həlak olması barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu facię ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm".

# Əli Əsədov Almatıda səfərdədir



***Azərbaycanın Baş naziri Əli Əsədov Qazaxıstanın Baş naziri Oljas Bektenovun dəvəti ilə Almatı şəhərində işgüzar səfərdədir.***

"Unikal" xəbər verir ki, Almatı Beynəlxalq Hava Limanında Ə.Əsədovu Qazaxıstan Respublikası Baş nazirinin müavini - hökumət aparatının rəhbəri Qalımjan Koyşıbayev və digər rəsmi şəxslər qarşılayıblar.

Ə.Əsədov səfər çərçivəsində "Digital Almaty 2025" beynəlxalq rəqəmsal forumunda çıxış edəcək. O, həmçinin Avrasiya Hökumətlərarası Şurasının iclasında qonaq qismində iştirak edəcək.

# Doktorantura təhsili birpilləli sistemə keçirilə bilər



***Elm və Təhsil Nazirliyi Milli Məclisdə müzakirə edilən doktorantura təhsilinin ikipilləli sistemdən birpilləli sistemə keçirilməsi məsələsinə münasibət bildirib.***

Nazirlikdən APA-nın sorğusuna cavab olaraq qeyd edilib ki, hazırda bu məsələ ilə bağlı müzakirələr aparılır.

"Bildiririk ki, beynəlxalq təcrübəyə əsasən, doktorantura səviyyəsi əksər ölkələrdə birpilləli sistem kimi təşkil olunub. Hazırda bu məsələ ilə bağlı müzakirələr aparılır", - deyə açıqlamada qeyd olunub.

# Bu qurumların iş rejimi dəyişəcək

***Dövlət orqanları (qurumları), təhsil və tibb müəssisələrinin iş rejimi dəyişkən iş qrafikinə əsasən təşkil ediləcək.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nda əksini tapıb.

Dövlət Proqramına əsasən, 2025-2026-cı illərdə Dövlət orqanlarının (qurumlarının),təhsil və tibb müəssisələrinin, habelə digər hüquqi və fiziki şəxslərin iş rejimi dəyişkən iş qrafikinə əsasən təşkil ediləcək. NK və ƏƏSMN, ETN, SN, TƏBİB, NƏŞ tərəfindən müvafiq siyahılar təsdiq ediləcək və müvafiq siyahıya uyğun dəyişkən iş rejimi təşkil ediləcək.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Nazir: Son 20 ildə talassemiyadan ölüm halı 5 dəfə azalıb

***İlkin tibbi sanitariya yardımına yanaşma yalnız kompleks şəkildə olmalıdır.***

Bunu Milli Məclisin Səhiyyə komitəsinin iclasında "İlkin səhiyyə xidməti: mövcud vəziyyət, görülən işlər, problemlər və onların həlli yolları" mövzusunda ictimai dinləmədə səhiyyə naziri Teymur Musayev deyib.

Nazir bildirib ki, müstəqillik illərində Azərbaycanda davamlı olaraq, səhiyyə sektorunda islahatlar həyata keçirilir: "Prezident İlham Əliyevin siyasətinin əsasında Azərbaycan vətəndaşının rifahı və onun sağlamlığının qorunması dayanır. Səhiyyəyə ayrılan vəsait 30 dəfə artırılıb. Eyni zamanda 700-dən artıq tibb müəssisəsində əsaslı təmir və yenidənqurma işləri aparılıb.



Bunların 70 %-dən çoxu regionlarda yerləşən tibb müəssisələri və ambulator müəssisələrdir".

Teymur Musayev qeyd edib ki, son 20 ildə qan xəstəlikləri ilə mübarizə tədbirləri gücləndirilərək talassemiyadan ölüm sayları 5 dəfə azaldılıb: "2023-cü ildə Azərbaycan malyariyadan tam azad ölkə kimi qeydiyyatdan keçib. 2021-ci ilin aprel ayından etibarən ölkəmizin bütün ərazilərində icbari tibbi sığortanın tətbiqi əhalinin bir sıra tibb xidmətlərinə əlçatanlığını fantastik şəkildə artırıb. 3315 tibb xidməti hazırda xidmətlər zərfinə daxildir, müəyyən sahələr üzrə cərrahi əməliyyatların sayı 89 % artıb. Bu özü göstərir ki, maliyyəni alaraq əhaliyə yüksək səviyyəli tibb xidməti göstərə biləcək tibbi infrastruktur mövcuddur. Son illərdə tətbiq olunan icbari tibbi sığorta tətbiqi bizi ilkin tibbi sanitariya yardımına yenidən baxılmasını, təkmilləşməsini zəruri edir. İlkin tibbi sanitariya xidmətinə müasir baxış bugünkü dinləmədə təmin olunacaq. Bu sahədə əl-ələ verərək ölkəmizdə müasir səhiyyə sisteminin tələblərinə cavab verən ilkin tibbi sanitariya xidmətini əhalimizin istifadəsinə verə biləcəyik".

# Azərbaycan XİN-dən fransalı nazirə cavab

***Təəssüf edirik ki, 29 yanvar 2025-ci il tarixində Senatda müzakirələr zamanı Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baro növbəti dəfə Azərbaycanın Fransanın dənizaşırı ərazilərinə qondarma müdaxiləsi ilə bağlı iddialar yaymağa cəhd edib.***

"Unikal" xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baro tərəfindən Azərbaycanın Fransanın dənizaşırı ərazilərində müdaxilə ilə bağlı Fransa Senatında səsləndirdiyi iddialara dair şərhində əksini tapıb.

"Fransanın xarici işlər naziri Jan Noel Baronun Azərbaycanı dənizaşırı ərazilərə müdaxilədə ittiham edən şərhi Fransanın Yeni Kaledoniya yerli əhalisinin tələblərinə qarşı hərəkətsizliyini ört-basdır etmək cəhdi olduğunu bir daha diqqətə çatdırırıq.

Məhz Fransa hər zaman regional məsələlərə qarışaraq, Azərbaycanın sülh və sabitliyi bərpa etmək istiqamətində apardığı prosesi pozmağa çalışıb.

Bakı Təşəbbüs Qrupu bir QHT kimi Fransanın müstəmləkə siyasətini və dənizaşırı ərazilərdəki problemlərini ictimaiyyətə çatdırmağı hədəfləyir. Bu cür qrupların işini gözdən salmaq cəhdləri dekolonizasiya prosesini sarsıdır.

Yalnız keçən il güc tətbiqi nəticəsində azı 14 nəfərin həlak olduğu və bir çox insanın yaralandığı Yeni Kaledoniyanın yerli əhalisinə qarşı repressiya siyasətinə son qoymaq əvəzinə, Azərbaycana qarşı şantaj



Fransanın xarici siyasət strategiyasının nə qədər faydasız olduğunu nümayiş etdirir.

Bundan əlavə, Fransanın müxtəlif beynəlxalq təşkilatlardakı rol və resurslarından neomüstəmləkə siyasətinə qarşı təbliğat aparmağı hədəfləyən beynəlxalq QHT müdafiəçilərinə təzyiq göstərmək üçün suiistifadə etməsi mənasızdır və heç bir nəticə verməyəcək.

Fransa xarici işlər nazirinin anti-Azərbaycan iddialarını qətiyyətlə rədd edir və pisləyirik", - A.Hacızadə vurğulayıb.

# MSK-ya daxil olmuş müraciətlər dairə seçki komissiyalarına göndərilib

***Mərkəzi Seçki Komissiyasının (MSK) 2025-ci il yanvarın 29-da keçirilən bələdiyyə seçkiləri ilə əlaqədar növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasın gündəliyinə bələdiyyə seçkiləri ilə əlaqədar Komissiyaya ünvanlanan müraciətlərə baxılması ilə bağlı məsələ daxil edilib.

Əvvəlcə Komissiyanın katibi Arifə Muxtarova məsələ ilə bağlı məlumat verib.

Sonra 72 saylı Cəlilabad kənd və 115 saylı Şəki kənd seçki dairələri üzrə Komissiyaya daxil olmuş müraciətlərə baxılıb.

MSK-nın qərarına əsasən, daxil olmuş müraciətlər Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq aidiyyəti üzrə baxılması üçün müvafiq dairə seçki komissiyalarına göndərilib.

İclas çərçivəsində müraciətlərin mümkün qədər tez araşdırılması və əsaslandırılması ilə bağlı tapşırıq verilib.

Qeyd edək ki, yanvarın 29-u Azərbaycanda bələdiyyə seçkiləri keçirilib. Seçkilərdə 1 milyon 874 min 810 seçici səsvermə hüququndan istifadə edib, seçici fəallığı 31,45 % olub.

# Bakıdan Xırdalana yeni yollar çəkiləcək

***Mərkəzi Seçki Komissiyasının (MSK) 2025-ci il yanvarın 29-da keçirilən bələdiyyə seçkiləri ilə əlaqədar növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasın gündəliyinə bələdiyyə seçkiləri ilə əlaqədar Komissiyaya ünvanlanan müraciətlərə baxılması ilə bağlı məsələ daxil edilib.

Əvvəlcə Komissiyanın katibi Arifə Muxtarova məsələ ilə bağlı məlumat verib.

Sonra 72 saylı Cəlilabad



kənd və 115 saylı Şəki kənd seçki dairələri üzrə Komissiyaya daxil olmuş müraciətlərə baxılıb.

MSK-nın qərarına əsasən, daxil olmuş müraciətlər Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq aidiyyəti üzrə baxılması üçün müvafiq dairə seçki komissiyalarına göndərilib.

İclas çərçivəsində müraciətlərin mümkün qədər tez araşdırılması və əsaslandırılması ilə bağlı tapşırıq verilib.

Qeyd edək ki, yanvarın 29-u Azərbaycanda bələdiyyə seçkiləri keçirilib. Seçkilərdə 1 milyon 874 min 810 seçici səsvermə hüququndan istifadə edib, seçici fəallığı 31,45 % olub.

04_27 IYUl-QARA.qxd 1/31/2025 12:06 AM Page 6



# 143 milyonluq yeyintiyə görə həbs edilən general cəzasının yüngülləşdirilməsini istəyir

***Müdafiə Nazirliyindəki 143 milyonluq yeyintidə təqsirli bilinən əsas fiqurlar - general Nizami Məmmədov və qoşun növlərinin maliyyə-xidmət rəisləri hökmdən narazıdırlar.***



"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, 11 il yarıma kimi həbsə məhkum edilmiş zabitlər hər biri apellyasiya şikayəti veriblər.

Onlar dövlətə dəymiş ziyanın xeyli hissəsinin ödənilməsini nəzərə alaraq cəzalarının yüngülləşdirilməsini istəyirlər.

Artıq Bakı Apellyasiya Məhkəməsi şikayətləri icraata götürüb. İlk baxış iclası fevralın 3-nə təyin edilib.

Qeyd edək ki, bu cinayət işinin istintaqını Dövlət Təhlükəsizliyi Xidməti (DTX) aparıb. Bakı Hərbi Məhkəməsinin hökmü ilə Nizami Məmmədov və Bayram Bayramovun hər biri 11 il 6 ay, Cəlal Kazımov 11 il, Vüsal Əlizadə 10 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

İbtidai istintaq və məhkəmə dövründə dövlətə dəymiş ziyanın ödənilməsi üçün Nizami Məmmədov 12 milyon 415 min 194 manat, Vüsal Əlizadə 325 min, Cəlal Kazımov isə 186 min manat ödəniş ediblər. Həmin məbləğlərin dövlət büdcəsinə ödənilməsi üçün qərar qəbul edilib. Eyni zamanda, təqsirləndirilən şəxslərin üzərinə həbs qoyulan əmlaklar dövlətə dəymiş ziyanın ödənilməsinə yönləndirilməsi məqsədilə dövlət nəfinə keçirilməsi üçün müsadirə olunub.

# Agentlik bu ərazilərdən idxala müvəqqəti məhdudiyyət qoydu

***Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) rəsmi məlumatlarına əsasən, Macarıstanın Zala bölgəsində xırdabuynuzlu heyvanların taun, Polşa Respublikasının Varminsko-Mazursk inzibati ərazisində blutanq, Liviya Dövlətinin Zəviyə dairəsində dabaq, Nigeriya Federativ Respublikasının Plato ştatında isə yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb.***

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin İnformasiya təminatı və innovativ həllər şöbəsindən "Unikal"a bildirilib ki, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəliklərdən qorunması üçün zonalaşma prinsipi nəzərə alınmaqla, Zala bölgəsindən, Varminsko-Mazursk inzibati ərazisindən, Zəviyə dairəsindən iri və xırdabuynuzlu heyvanların, habelə onlara aid məhsulların, Plato ştatından isə quş və quşçuluq məhsullarının idxalı və tranzit daşınması ilə bağlı ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunub.



Eyni zamanda müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.

# "Bu məsələ birbaşa Prezidentin diqqətindədir" - ADSEA sədrinin müşaviri

## Bakıda kanalizasiya kollektorlarının inşası ilə bağlı dövlət proqramı qəbul olunacaq

***"Bakı şəhərində kanalizasiya sisteminin yenidən qurulması ilə bağlı layihələr hazırlanıb və müvafiq qurumlara təqdim olunub".***



"Unikal" xəbər verir ki, bunu "Su şəbəkəsinə qoşulma" İşçi Qrupun iclasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müşaviri Etibar Məmmədov deyib.

O qeyd edib ki, bu məsələ birbaşa Prezidentin diqqətindədir: "Yaxın zamanlarda bu layihələrin icrası, yeni böyük tunellərin və kanalizasiya kollektorlarının inşası ilə bağlı dövlət proqramı qəbul olunacaq. Artıq bu istiqamətdə Prezidentin tapşırıqları verilib və yaxın gələcəkdə kanalizasiya sisteminə qoşulmada ciddi problemlər olmayacaq.

Ümumiyyətlə, bəzi problemlər mövcuddur. Bu problemlər əsasən mərkəzləşmiş sistemin olmadığı yerlərdə yaranır. Belə ki, sahibkarlar üçün bu sistemə qoşulmaq mümkün olmur. Bu da təbiidir, çünki istehsalçılar bu gün sudan istifadə edirlər, lakin mərkəzləşmiş sistemə qoşula bilmirlər. Bunun əvəzinə, model tipli qurğulardan istifadə edərək hələlik öz bizneslərini inkişaf etdirə bilirlər. Bu istiqamətdə aidiyyəti qurumlar tərəfindən hər hansı bir dəstək, kömək və ya tövsiyə lazım olarsa, biz hər zaman hazırıq və bu məsələləri həll etməyə çalışırıq".

"Dövlət Şəhərsalma və Arxitektura Komitəsi prosesləri sürətləndirməlidir. Bizim işimiz bu qurumla əlaqəlidir. Yanvarın 16-dan etibarən bu quruma müvafiq sənədlər təqdim olunub, lakin hələlik tam cavab verilməyib. Yeni qaydalara əsasən, bir ay müddətində istehlakçıların tələblərinə cavab verilməli və texniki şərtlər təmin olunmalıdır ki, su təchizatı şəbəkəsinə qoşulmada bürokratiya ortaya çıxmasın",- deyən müşavir əlavə edib ki, fevralın 15-dən etibarən ölkənin su təchizatı infrastrukturunun təkmilləşdirilməsi və genişləndirilməsi layihəsinin tam icrasına başlanacaq: "Layihə çərçivəsində müxtəlif dövlət qurumları ilə əməkdaşlıq genişləndirilib və aidiyyəti qurumlar prosesə fəal şəkildə qoşulub. Görülən işlər nəticəsində ciddi irəliləyiş əldə olunub və layihənin icrası tam gücü ilə davam etdiriləcək. Eyni zamanda, ADSEA layihənin həyata keçirilməsi çərçivəsində su şəbəkəsinə qoşulma qaydaları ilə bağlı təqdimat keçirməyi planlaşdırır".



# İtaliya-Azərbaycan Universitetində yeni ixtisaslar təqdim edilib

***İtaliya-Azərbaycan Universitetində Dizayn və Memarlıq fakültəsinin Kommunikasiya Dizaynı və Şəhərsalma üzrə yeni ixtisasları təqdim edilib.***

"Unikal" xəbər verir ki, ADA Universiteti bakalavr ixtisaslarının sırasına daha ikisini əlavə edərək, İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində təqdim etdiyi proqramların sayını artırıb. Bu münasibətlə keçirilən tədbirdə ADA Universitetinin rektoru, müvafiq sahə üzrə dövlət qurumlarının nümayəndələri və italyan ekspertlər çıxış ediblər.

Rektor Hafiz Paşayev çıxışında bildirib ki, şəhərsalma və dizayn sahəsində müasir biliklərə, dünya təcrübəsinə malik, ən son yanaşmalardan xəbərdar mütəxəssislərə ehtiyac var:

"Yeni ixtisasları təqdim etməkdə məqsədimiz yerli peşəkarlar yetişdirərək bu ehtiyacı qarşılamaqdır".

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirib ki, yaşayış yerlərinin inkişafı əhalinin həyat keyfiyyətinin artırılmasına, urbanistik mühitin yaxşılaşdırılmasına təsir etdiyinə görə bu prosesi düzgün idarə etməyi bacaran kadrlara ehtiyac var: "Kommunikasiya Dizaynı və Şəhərsalma üzrə yeni proqramlar vasitəsilə bu istiqamətdə uğurlu addımlar atılacaq".

# Tanınmış ekspert həbs edildi

***Azərbaycanda informasiya texnologiyaları üzrə tanınmış ekspert İlqar Əliyev həbs edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz paylaşım edib.

O qeyd edib ki, ekspert qanunsuz narkotik maddə daşımada ittiham edilib.

Ekspert məhkənin qərarı ilə 4 il azadlıqdan məhrum edilib.

# Rövşən Rzayev Gəncədə vətəndaşları qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev yanvarın 30-da Gəncə şəhərində vətəndaşları qəbul edib.***

"Unikal" xəbər verir ki, qəbulda, əsasən Gəncə, Samux, Göygöl rayonlarında müvəqqəti məskunlaşmış, həmçinin Kəlbəcər rayonundan olan və yaxın bölgələrdə yaşayan məcburi köçkünlər iştirak ediblər. Onların müraciətlərində dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, müvəqqəti yaşayış sahələrinin təmiri, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq, Böyük Qayıdışla və digər şəxsi xarakterli müraciətlər üstünlük təşkil edib.

Prezident İlham Əliyevin sosial siyasətində məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasının, məşğulluğunun artırılmasının prioritet istiqamət olduğu, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın bu kateqoriyadan olan insanlara xüsusi diqqət və qayğı göstərdiyi qəbulda vətəndaşlara bir daha xatırladılıb. Qeyd edilib ki, hazırda dövlətimizin başçısının qarşıya qoyduğu ən mühüm vəzifə onların işğaldan azad edilmiş ərazilərə, doğma yurda qayıdışını sürətləndirmək, orada təhlükəsiz və layiqli həyat şəraiti yaratmaqdır. Qayıdış prosesinin uğurla davam etdiyi, mərhələli qaydada aparılan bu prosesdə ilk növbədə müvəqqəti məskunlaşma yerlərində ən ağır vəziyyətdə yaşayanların köçürülməsinə üstünlük verildiyi onların diqqətinə çatdırılıb.

Qəbul zamanı vətəndaşların qaldırdıqları məsələlərin bir qismi yerində həll olunub. Müraciətlərdə vurğulanan digər məsələlərin qısa müddətdə araşdırılacağı, həmçinin aidiyyəti üzrə dövlət qurumlarına çatdırılacağı bildirilib.

04_27 IYUl-QARA.qxd 1/31/2025 12:06 AM Page 7





## Seçkilərdə bələdiyyələr üzrə lider namizədlər açıqlandı

***Bələdiyyə seçkilərində bələdiyyələr üzrə lider namizədlər açıqlanıb.***

"Unikal" xəbər verir ki, lider namizədlərin siyahısı Mərkəzi Seçki Komissiyasının saytında yerləşdirilib.

Qeyd edək ki, bələdiyyə seçkiləri 118 dairəni, 685 bələdiyyəni əhatə edib.

## Gömrük əməkdaşlarının maaşları 4 ay sonra ödənildi

***Dövlət Gömrük Komitəsinin (DGK) əməkdaşlarının maaşları 4 ay sonra sonra ödənilib.***

"Unikal" xəbər verir ki, DGK-nin mətbuat xidmətinin rəhbəri Natiq Axundov məlumat verib. O bildirib ki, maaşların verilməməsi ilə bağlı yaranan problem aradan qaldırılıb.

## AAYDA Qarabağ və Şərqi Zəngəzurda görülən işləri açıqlayıb

***2020-2024 cü illərdə Azərbaycanın işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində "İşğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində, həmçinin dövlət başçısının sərəncamları əsasında 44 avtomobil yolu layihəsinin tikintisi yerinə yetirilir.***



Bu barədə "Unikal" Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə istinadən xəbər verir.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə icra olunan avtomobil yolları üzərində ümumi uzunluğu 70,8 km olan 45 tunel, ümumi uzunluğu 9 581,6 m 447 körpü və ümumi uzunluğu 3 871 m olan 16 viaduk inşa edilir.

İndiyədək uzunluğu 59,6 km təşkil edən 28 tunelin, uzunluğu 8 339,1 metr təşkil edən 392 körpünün və uzunluğu 1 695 metr olan 9 viadukun tikintisi başa çatıb.

# "2025-ci il böyük sosial paketin icra olunduğu il olacaq"

## Vüqar Bayramov: "Qiymət artımları baş verən zaman vətəndaşların xərci də artır"

***Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, maaş, pensiya artımlarından sonra ərzaq qiymətlərinin yüksəlməsindən, özəl pensiya fondlarının hansı üstünlüklərinin olmasından, vəfat edən şəxslərin pensiya kapitalının ailə üzvlərinə ödənilməsi məsələsindən və dünyasını dəyişən işləmiş şəxslər üçün dəfn pulunun nə qədər ola biləcəyindən danışıb.***

***-Vüqar bəy, məlum olduğu kimi, hər ilin əvvəlində maaş və pensiyalar artırılır. Bu artımlar fonunda ərzaq qiymətlərinin də bahalaşması baş verir. Bu məsələlərin tənzimlənməsi üçün hansı addımlar atılmalıdır?***

-Əməkhaqqı və pensiya artımları fonunda süni qiymət artımlarına qarşı mübarizə çox önəmlidir. Süni qiymət artımlarına qarşı mübarizənin güclənməsi həm də vətəndaşlarımızın maaş və pensiya artımlarının süni qiymətlər tərəfindən yeyilməsinin qarşısını ala bilər. Qiymət artımları baş verən zaman vətəndaşların xərci də artır. 2025-ci il böyük sosial paketin icra olunduğu il olacaq. Cənab Prezident tərəfindən imzalanmış sərəncamlar, "Əmək pensiyaları haqqında" qanuna uyğun olaraq növbəti ay pensiyaların indeksləşdirilərək artırılması, minimum pensiyanın artımı, Nazirlər Kabineti tərəfindən Vahid Tarif Cədvəlinə uyğun olaraq əməkhaqqı artımı, minimum əməkhaqqındakı artım praktiki olaraq dövlət büdcəsindən sosial istiqamətlərə daha çox vəsaitin ayrılmasına gətirib çıxaracaq. İlkin qiymətləndirmələrə görə, sosial paketin maliyyələşməsinə əlavə olaraq 1,6 milyard manat vəsait ayrılacaq. Bötövlükdə, 2025-ci ilin dövlət büdcəsinin xərclərinin 16,9 faizi sosial istiqamətə yönəldiləcək. Bu o deməkdir ki, istehlaka böyük vəsaitin yönəldilməsi müşahidə olunacaq. Bu da süni qiymət artımlarına qarşı mübarizənin daha sistemli və geniş şəkildə həyata keçirilməsini aktuallaşdırır. Bu baxımdan, uyğun dövlət qurumlarına istehlak bazarında qiymətlərin optimallaşdırılmasına və süni qiymət artımlarına qarşı mübarizə baxımından yeni alətlərdən, metodlardan istifadə etməklə qiymət artımlarının qarşısının alınması kimi öhdəliklər daha da aktuallaşmaqdadır.

***-Bir neçə gün əvvəl Azərbaycanda özəl pensiya fondlarının yaradılması ilə bağlı Mərkəzi Bankın mövqeyi də açıqlandı. Son illər bu istiqamətdə müzakirələr artıb. Siz necə düşünürsüz, ölkəmizdə özəl pensiya fondlarına tələbat olacaqmı?***

-Özəl pensiya fondlarının yaradılması son aylar müzakirə edilən məsələlərdəndir. Artıq bu istiqamətdə qanunvericilik aktlarının uyğunlaşdırılması ilə bağlı işlər görülür. Bu, Azərbaycanda dövlət pensiya fondu ilə yanaşı özəl pensiya fondlarının formalaşmasına, istifadəsinə imkan yaradacaq. Özəl pensiya fondlarının formalaşması vətəndaşlarımız üçün paralel yığım imkanlarıdır. Ona görə ki, bu praktika əksər inkişaf etmiş ölkələrdə var. Özəlliyi ondan ibarətdir ki, vətəndaş paralel olaraq özəl pensiya fondunda da yığım edir. Pensiya yaşı tamam olan zaman alternativ mənbədən pensiya almaq imkanına malik olur. Məsələn, vətəndaşımız özəl pensiya fonduna yığım edir və pensiya yaşı tamam olan zaman onun dövlətdən aldığı pensiya 600 manatdır, özəl pensiya fondlarına yığım nəticəsində 300 manat almaq hüququ qazanır. Nəticədə həmin vətəndaşımızın pensiya yaşı tamam olan zaman pensiya məbləği 600 manat deyil, 900 manat olur. Bu da vətəndaşlarımızın pensiya məbləğində artımlara gətirib çıxarır. Həmçinin, bağlanmış müqaviləyə əsasən, özəl pensiya fondunda olan kapitalın bir hissəsini daha tez istifadə etmək imkanına malik ola bilər. Bu praktika bir sıra inkişaf etmiş ölkələrdə var. Bu, vətəndaşlarımızın yığım və pensiya məbləğinə təsir göstərmək, həm də pensiya kapitalından fərqli, daha tez istifadə etmək imkanı yarada bilər.

***-Bir müddət əvvəl vəfat edən şəxslərin pensiya kapitalının ailə üzvlərinə ödənməsi məsələsi də müzakirə mövzusu idi. Deputat həmkarlarınız da pensiya fonduna yığılan kapitalın vətəndaş dünyasını dəyişdiyi halda onun ailəsinə ödənilməsini təklif edirdilər. Hazırda bu istiqamətdə hansısa işlər görülürmü və siz bunun necə tənzimlənməsini təklif edərdiniz?***

-Dünyasını dəyişən vətəndaşlarımızın pensiya kapitalının bir hissəsinin onun vərəsəsinə verilməsi də müzakirə edilən məsələlərdəndir. Milli Məclisdə bu istiqamətdə müzakirələr aparılıb. Hazırda dünyasını dəyişmiş vətəndaşın pensiya ödənişlərinə diqqət yetirsək, həmin vətəndaşlarımızın təxminən 40 faizinin pensiyasını onun vərəsəsi, yoldaşı və ya uşaqları alır. Mövcud qanunvericiliyə əsasən, dünyasını dəyişən şəxsin yoldaşı pensiya yaşı tamam olduqdan sonra və ya pensiya alırsa, həmçinin öz pensiyası azdırsa, ondan imtina edərək yoldaşının pensiyasından istifadə etmək hüququna malikdir. Eyni zamanda, 18 yaşına çatmamış övladları varsa, bu halda pensiya valideynini itirmiş şəxslərə ödənilir. Biz pensiya kapitalından istifadə ilə bağlı təkliflərimizi təqdim etmişik. Həm Sinqapur, həm də ABŞ modelindən istifadəni təklif edirik. Çünki hər iki modeldə pensiya kapitalının bir hissəsinin istehlaka yönəldilməsi imkanları var. Təklifimiz ondan ibarətdir ki, yalnız minimum pensiya kapitalından deyil, həm də orta pensiya kapitalından istifadə olunsun. Yalnız dünyasını dəyişmiş vətəndaşlarımız üçün deyil, ümumiyyətlə pensiya kapitalında yığım nəzərə alınmaqla istifadə imkanlarının verilməsini məqsədəuyğun hesab edirik.



***-Vəfat edən təqaüdçünün yaxınlarına minimum pensiyanın 3 misli qədər dəfn xərcləri üçün (dəfn pulu) sosial müavinət ödənilir. Bu il minimum pensiyanın məbləği 280 manatdan 320-ə çatdığı üçün avtomatik olaraq da pensiyaçılar üçün təyin olunan dəfn pulunun məbləği artır. İşləyən şəxslər üçün dəfn pulunun məbləği nə qədər olacaq?***

-Vəfat etmiş pensiyaçının dəfn pulu minimum pensiya məbləğinin 3 misli qədər müəyyənləşir. Minimum pensiya kapitalı fevraldan artdığı üçün bu rəqəm 840 manatdan 960 manata yüksələcək. Hazırda minimum pensiya məbləği 280 manatdır. Bu o deməkdir ki, dünyasını dəyişən pensiyaçı üçün dəfn pulu 840 manat hesablanır. Növbəti aydan etibarən minimum pensiya məbləği 320 manat olduğuna görə dəfn üçün ödənilən vəsait 960 manat nəzərdə tutulacaq. Sığorta olunan vətəndaşımızın dünyasını dəyişən zaman dəfn pulunun artırılmasını məqsədəuyğun hesab edirik. Bununla bağlı təkliflər təqdim olunub. Nəzərə alsaq ki, həmin vətəndaşlarımız sığorta ödəyirlər. Onlar sığorta ödədikləri üçün yığımlar var. Həmin sığorta yığımları nəzərə alınmaqla, dəfn pulunun müəyyənləşdirilməsi də mümkün ola bilər. Təklif edirik ki, sığorta məbləğinə uyğun olaraq əmsallar müəyyənləşsin. Dəfn üçün minimum məbləğ müəyyənləşsin. Minimumdan artıq məbləğ sığorta kapitalına uyğun olaraq müəyyən edilsin. Əmsalları müəyyənləşdirməklə sığortaçı dünyasını dəyişən zaman dəfn pulunun ödənilməsi mümkündür. Sığorta olunan vətəndaşımız dünyasını dəyişən zaman onun vərəsəsinə daha çox dəfn pulunun ödənilməsinə imkan yarana bilər.

***Anar Kəlbiyev***

# Teymur Musayevin bağlatmaq istədiyi klinika ilə bağlı ilginc iddialar

## Laser Beauty Estetik Klinikasında yoxlamaya mane olmağa çalışanlar kimə arxayındırlar?

***Ötən həftə məlum oldu ki, Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin (AEM) yoxlayıcı-mütəxəssisləri tərəfindən yanvarın 22-də Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç, məhəllə 507-511 ünvanda yerləşən "Laser Beauty Estetik Klinikası" MMC-yə məxsus özəl tibb müəssisəsində planlı yoxlamaya başlanılıb və proses 23 yanvara kimi davam etdirilib.***

Mərkəzdən verilən məlumata görə, yoxlama zamanı lisenziyanın şərtlərinə riayət olunması, özəl tibb fəaliyyəti subyekti tabeliyində çalışan tibb mütəxəssislərin sertifikasiyaya cəlb edilməsi, lisenziyada nəzərdə tutulan işlərdən və xidmətlərdən kənar tibb fəaliyyətinin həyata keçirilməsinin qanunauyğunluğu araşdırılıb.

Yoxlama nəticəsində məlum olub ki, tibbi qeydiyyat sənədləri Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilən forma və qaydalar üzrə aparılmır. Müəssisədə istifadə edilən tibbi avadanlıqların normativ-texniki tələblərə uyğunluğu barədə təsdiqedici sənədlər yoxlamaya natamam təqdim edilib. Dərman vasitələrinin saxlandığı soyuducularda termometr aşkar edilməyib, həmçinin, "temperatur qeydiyyat vərəqəsi" də aparılmır. İonlaşdırıcı şüa mənbələrindən istifadə edən müəssisənin "radioloji-gigiyenik pasport sənədi" yoxlamaya təqdim olunmayıb.

Müəssisəyə baxış keçirilən zaman stomatoloji otaqda sanitar-epidemioloji tələblərə dair qaydalara riayət etmədən, "cərrahi-stomatoloji", "rentgenoloji", "diş texniki" işlərinin həyata keçirilməsi üçün şəraitin yaradılması faktı aşkar edilib. Bundan əlavə, aradan qaldırılması vacib olan çoxsaylı digər nöqsanlar aşkar olunub.

Həmçinin, müəssisədə ixtisasa uyğun vəzifəyə təyin edilməməsi faktı müəyyənləşib. Bununla yanaşı, müəssisədə çoxlu sayda (30 nəfərdən çox) sertifikasiyadan keçmədən praktik özəl tibbi fəaliyyətlə məşğul olma faktlar aşkarlanıb.

Müəssisədə lisenziyada göstərilən işlərdən və xidmətlərdən kənar tibb fəaliyyətinin həyata keçirilməsi də müəyyən olunub.

Xüsusi ilə qeyd edək ki, yoxlama zamanı baş həkim Rəna Soltanova, klinikanın rəhbəri Yeganə Cəfərova tərəfindən AEM-in yoxlayıcı-mütəxəssislərinə qarşı qeyri-etik davranış nümayiş etdirilib (qışqırıb, telefonu AEM-in mütəxəssislərinin üzərinə çırpıb və yuxarı instansiyalara şikayət edərək, işdən çıxartdırmaqla hədələyiblər) və müqavimət göstərilib. Yoxlamanın nəticəsində tərtib edilən aktı və inzibati xəta haqqında protokolu imzalamaqdan imtina ediblər.

Baş verənlərlə bağlı İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə protokol tərtib edilib. Mövcud qanunvericiliyə əsasən klinikanın fəaliyyətinin dayandırılması istiqamətində zəruri tədbirlər görülür.

Rəna Soltanova isə yoxlamanın nəticəsindən narazı qalıb. "Klinikamız səkkiz ildir fəaliyyət göstərir. Hər il də yoxlama keçirilir. Bu dəfə də yoxlama keçirilib, amma iddia olunan nöqsanlar absurddur", - deyə o bildirib.

"Reportyor.info"nun məlumatına görə, baş həkim yoxlama aparanlara qarşı kobudluq etməsi barədə iddiaları da təkzib edib. Rəna Soltanovanın iddialı danışması, hətta "bu belə qalmaz" deyərək bir növ hədə tonuna keçməsi onun kimlərəsə arxalandığı barədə iddialara səbəb olub.

Qeyd edək ki, Laser Beauty Klinikası"Laser Beauty Estetik Klinikası" MMC-yə məxsusdur. Bu MMC-nin təsisçisi isə Rəna Soltanovadır. MMC 2018-ci ildə təsis edilib. 2020-ci ilədək nizamnamə kapitalı 10 manat olub. Həmin il nizamnanə kapitalı 335 658 manata, 1 il sonra isə 587 793 manata qədər artırılıb.

Nizamnamə kapitalının birdənbirə yüksək məbləğə çatdırılması klinikanın məşhurların reklamı sayəsində müştəri sayını artırması ilə izah edilir. Lakin müştərilərinin çox olması hələ klinikanın yüksək səviyyədə xidmət göstərməsi anlamına gəlmir. Hər halda 2023-cü ildə Laser Beauty Estetik Klinikası müzakirələrə səbəb olan qalmaqalla gündəmə gəlmişdi. Həmin vaxt yayılan məlumatlarda deyilirdi ki, klinikada əməliyyat olunan Azərbaycanın Xalq artistlərindən birinin gəlininin səhhətində problemlər yaranıb. Xəstə (etik səbəblərdən adını açıqlamırıq) Laser Beauty Estetik Klinikasının "Neapol" filialında estetik əməliyyat olunaraq evə buraxıldıqdan sonra, gecə saatlarında səhhəti qəfil pisləşib və komaya düşüb. Yaxınları xəstəni təcili Mərkəzi Gömrük Hospitalına aparıblar. Xəstə sözügedən hospitalda 10 gün koma vəziyyətində qalıb. Məlumatlarda xəstənin ilkin əməliyyat olunduğu Laser Beauty Estetik Klinikasının "Neapol" filialının estetik əməliyyatların aparılması üçün uyğun lisenziyaya malik olmadığı bildirilirdi. Klinikanın ümumilikdə 5 filialı var. Bu filialların hamısının lisenziyasının olub-olmadığı bəlli deyil.



Onu da qeyd edək ki, son günlər estetik əməliyyatlar nəticəsində sağlamlığını itirənlərin sayı artıb. Bu da müvafiq qurumları hərəkətə gətirib. Laser Beauty Estetik Klinikasında aparılan yoxlamalar da prosesin tərkib hissəsidir.

"Unikal"ın araşdırmaları zamanı o da aydınlaşıb ki, Rəna Soltanovanın baş həkimi olduğu klinikanın əsası əslində 2010-cu ildə qoyulub. Klinikanı həmin vaxtdan Səhiyyə Nazirliyində yüksək vəzifə tutmuş, daha dəqiq desək, nazir müavini olmuş şəxslərdən birinin himayə etdiyi deyilir. Həmin sabiq nazir müavininin Elsevər Ağayev olduğuna dair də iddialar var, lakin bunu dəqiqləşdirmək mümkün olmayıb. İstənilən halda klinikanın arxasında güclü bir əlin dayandığı şübhə doğurmur, əks təqdirdə sual olunur: təftişə gələn AEM-in yoxlayıcı-mütəxəssislərinə qarşı qeyri-etik davranış nümayiş etdirmək cəsarətini klinika rəhbərliyi görəsən haradan alır?!

Ən əsası isə indi adı çəkilən müəssisənin bağlanacağı bildirilir, lakin səhiyyə naziri Teymur Musayevin verilmiş bu qərarın arxasında sonadək dayanıb-dayanmayacağını zaman göstərəcək. Ona görə də gözləyək...

***Sənan Mirzə***



# Müdafiə Nazirliyinin sabiq idarə rəisi ev dustaqlığına buraxıldı

***Müdafiə Nazirliyinin Mənzil İstismar İdarəsinin sabiq rəisi polkovnik Elmar Məmmədov və eyni idarənin Əsaslı və Cari Təmir bölməsinin sabiq müdiri Rəhim Laçınov ev dustaqlığına buraxılıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, Bakı Hərbi Məhkəməsi belə qərar qəbul edib.

Məhkəmə zabitlərin vəkillərinin həbs qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı vəsatətlərini əsaslı hesab edib.

Qeyd edək ki, E.Məmmədov və R.Laçınov ötən ilin avqustunda həbs edilmişdilər. Onlar mənimsəmə, rüşvət alma və vəzifə səlahiyyətlərini aşma cinayətlərində ittiham edilirlər.

# Hüseyn Abdullayev Prezidentə müraciət etdi

***Həbsdə olan sabiq deputat Hüseyn Abdullayevin cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqının yenilənidiyi bildirilib.

Dövlət ittihamçısı təqsirləndirilən şəxsə ittiham aktını xatırladıb, H. Abdullayevə ifadə vermək təklif olunub.

H.Abdullayev məhkəmə iclasında Prezidentə müraciətini səsləndirib. O, səhhətinin, həmçinin 6 il həbsdə qalmasının nəzərə alınmasını və anasına qovuşmağına kömək edilməsini xahiş edib.

H.Abdullayev ittihamlarla razılaşmadığını bildirib.

Məhkəmə istintaqının yekunlaşdığı elan olunub. Dövlət ittihamçısı çıxış edib.

Prokuror Hüseyn Abdullayevin 3 il müvafiq vəzifə tutmaq hüququndan məhrum edilərək 10 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Təqsirləndirilən şəxsin vəkilləri çıxış üçün vaxt istəyib.

İclas fevralın 13-dək təxirə salınıb.

# Bu şəxslərə dərmanları evlərində çatdırmaq təklif edilir

***Dövlət proqramları çərçivəsində pulsuz təmin edilən dərman vasitələri əsasən poliklinkalar, ailə sağlamlıq mərkəzlərində və digər müəssisələrdə paylanılır.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin iclasında "İlkin səhiyyə xidməti: mövcud vəziyyət, görülən işlər, problemlər və onların həlli yolları" mövzusunda ictimai dinləmədə Səhiyyə Nazirliyinin Tibb müəssisələrinin Akkreditasiyası və keyfiyyətə nəzarət Mərkəzi PHŞ-ın İdarə Heyətinin sədri vəzifələrini müvəqqəti icra edən Şərafət İsmayılova deyib.

O qeyd edib ki, bu isə kəndlərdə yaşayan əhali üçün çətinliklər yaradır: "Bu dərmanlar mobil apteklər vasitəsilə həftənin konkret günlərində bütün qaydalara riayət etməklə əhaliyə çatdırılsın. Amma insan bir dərman almaq üçün kənddən rayon mərkəzinə gəlməsin, bu insanlar üçün müəyyən narahatçılıqlar yaradır".

***Anar Kəlbiyev***

04_27 IYUl-QARA.qxd 1/31/2025 12:06 AM Page 9





# "Səhiyyədə ciddi islahatlar həyata keçirilir" - Komitə sədri

***"Azərbaycan səhiyyəsində ciddi islahatlar həyata keçirilir. Ölkəmizdə icbari tibbi sığorta bütövlüklə həyata keçirilir. Səhiyyə sahəsinə ayrılan vəsait də ilbəil artır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib. O bildirib ki, ölkəmizdə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti yüksəlib.

"Əhalimizin icbari tibbi sığortadan gözləntiləri böyükdür. İlkin tibbi xidmətlə bağlı ölkəmizdə xeyli işlər görülüb", - deyə komitə sədri bildirib.

***Anar Kəlbiyev***

# Bu şəxslərin pensiyaları iki dəfə artırılacaq

***"Gələn aydan etibarən pensiyalarda iki istiqamətdə artımlar həyata keçiriləcək: həm minimum pensiya artırılacaq, həm də əmək pensiyaları indeksləşdiriləcək. Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncama uyğun olaraq minimum pensiya məbləği bu ilin fevral ayından 280 manatdan 320 manata çatdırılacaq".***

"Unikal" xəbər verir ki, bu fikirləri iqtisadçı deputat Vüqar Bayramov deyib.

"Əmək pensiyalarının indeksləşdirilməsi isə "Əmək Pensiyaları" haqqına Qanuna əsasən həyata keçirilir. Sözügedən qanuna əsasən, bütün növ əmək pensiyaları əvvəlki ildə ölkə üzrə orta aylıq maaşdakı artım faizinə indeksasiya olunaraq artırılır. Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, 2024-cü ilin ilk 11 ayında ölkə üzrə orta aylıq əmək haqqı 8.0 faiz artaraq 996.8 manata çatıb. Bu isə o deməkdir ki, ölkə üzrə ötən ilin yekun əmək haqqı artımının təxminən 8.0 faiz olacağı gözlənilir.

Bütün bunlar ilə yanaşı, bəzi vətəndaşlarımızın pensiyaları iki dəfə artırılacaq, yəni onların pensiyaları həm indeksləşdirməyə cəlb olunacaq, həm minimum pensiya məbləğinə çatdırılmaq üçün yenidən artırılacaq. Məsələn, əgər vətəndaşımız əmək pensiyası hüququnu 01 yanvar 2025-ci il tarixindən öncə qazanıbsa və onun pensiya məbləği 290 manatdır, yəni yeni minumum pensiya məbləğindən (320 manat) azdırsa bu zaman da onun pensiya məbləği indeksləşdiriləcək və pensiyasına 23.2 manat əlavə olunacaq. Çünki indeksləşdirmə ilə bağlı sənəd hər il fevral ayında imzalansa da o yanvarın 1-dən qüvvədə olur. Yəni, ilin əvvəlindən etibarən bütün əmək pensiyaları indeksləşdirlir. Amma bizim nümunədə alınan məbləğ- 313.2 manat, yeni minimum pensiya məbləğindən az olduğu üçün həmin rəqəm daha sonra 320 manata çatdırılacaq. Deməli, həmin vətəndaşımızın pensiya məbləğinə həm indeksləşdirmə, həm də birbaşa artım tətbiq olunacaq", - deyə V.Bayramov bildirib.

# Meymunçiçəyinə ilk yoluxan şəxs evə buraxılıb

***Azərbaycanda meymunçiçəyi virusuna ilk yoluxan şəxsin müvafiq tibb müəssisəsində müalicəsi yekunlaşıb.***

Bu barədə "Unikal"a TƏBİB-dən bildirilib. Məlumata görə, vəziyyəti qənaətbəxş olan şəxs ambulator müalicə üçün evə buraxılıb.

Xatırladaq ki, yanvarın 18-də Azərbaycanda ilk meymunçiçəyinə yoluxma faktı aşkarlanıb.

# Əsabil Qasımovun şirkətində müəmmalı işlər

## Sabiq deputata məxsus məşhur MMC niyə tez-tez cərimələnməyə başlayıb?

***"Karmen" MMC təhlükə potensiallı obyektləri dövlət reyestrində qeydiyyatdan keçirmədiyinə görə cərimələnib.***

"Unikal" xəbər verir ki, iqtisadiyyat.az-ın əldə etdiyi məlumata görə, müvafiq qurum tərəfindən şirkət barəsində İnzibati Xətalar Məcəlləsinin 276-1-ci (Təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməməsi) maddəsinə əsasən cərimə protokolu tərtib edilib.

Daha sonra protokol baxılması üçün Abşeron Rayon Məhkəməsinə göndərilib. Məhkəmədə barəsində protokol tətbiq edilmiş MMC ilə bağlı müraciətə baxılıb.

Hakim Abusət Qasımovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, şirkətə inzibati tənbeh tətbiq edilib, yəni cərimə kəsilib.

Xatırladaq ki, təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməməsinə görə fiziki şəxslər 500 manatdan 1000 manatadək məbləğdə, vəzifəli şəxslər 2500 manatdan 3500 manatadək məbləğdə, hüquqi şəxslər 5000 manatdan 10000 manatadək məbləğdə cərimə edilir.

Qeyd edək ki, 12 iyun 2003-cü ildə qeydiyyata alınan, nizamnamə kapitalı isə 43 138 AZN olan "Karmen" MMC-nin qanuni təmsilçisi İlham Şəmil oğlu Xəlilovdur. Mətbuatda MMC-nin sabiq deputat Əsabil Qasımova məxsus olduğu bildirilir. Məsələ burasındadır ki, "Karmen" keçmiş deputata məxsus "Karat Holding"ə daxildir.

Bu il 70 yaşını qeyd edəcək Əsabil Qasımov 79 saylı İmişli seçki dairəsindən IV çağırış Milli Məclisin deputatı olub. O, nəhəng "biznes imperiyasına" malikdir, son vaxtlar Rusiyada kurort və sanatoriya biznesini gücləndirməklə daha çox diqqət çəkir. Bu məqsədlə eks-deputat sözügedən ölkəyə on milyonlarla dollarlıq investisiya qoyub. Əsabil müəllimin Rusiyada, həmçinin Qazaxıstanda taxılçılıqla və heyvandarlıqla məşğul olduğunu da unutmayaq. "Un kralı" sayılan keçmiş deputat hətta Ukraynada da taxılçılığa ciddi sərmayə qoymuşdu. Onun ərzaq məhsullarının, içki və tütün məhsullarının topdan ticarəti ilə məşğul olan şirkəti belə var. Eyni zamanda Qasımov Azərbaycanda un və tikinti biznesi ilə məşğuldur. Onun inşaat şirkətlərinin adı mütəmadi olaraq qanunu pozmaqda, vətəndaşları evlərindən qeyri-qanuni çıxartdıraraq, ya da yaşıllıqlara qənim kəsilərək tikinti işləri aparmaqda hallanır. Məsələn, keçmiş deputata aid olduğu deyilən "İnvest M. Construction" MMC tikinti şirkəti bir müddət öncə Nəsimi rayonunun köhnə İcra Hakimiyyəti binasının arxa tərəfindəki 100-dən artıq çoxillik ağacı kökündən çıxararaq məhv etmişdi. Bununla bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 11 saylı Ərazi Ekologiya İdarəsi və Bakı şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyi müvafiq icazə olmadan məhv edilmiş 37 ağac üçün 234000 (iki yüz otuz dörd min) manat məbləğdə cərimə protokolu tətbiq etmiş, cərimə məhkəmə qaydasında tikinti şirkətinə ödətdirilmişdi. Ölkənin un bazarında inhisarçı mövqelərə malik "Karmen" isə tez-tez bu məhsulun qiymətini süni şəkildə bahalaşdırma cəhdlərinə görə ittiham olunur.Üstəlik, Qasımovun "biznes imperiyası"na daxil olan bu ən məşhur şirkətin adı son vaxtlar cərimələrlə də tez-tez gündəmə gəlməyə başlayıb. Məsələn, təxminən üç ay öncə məlumat yayıldı ki, "Karmen" məhkəməlik olub. Buna səbəb adı çəkilən MMC-nin vergilər, rüsumların ödənilməsi, maliyyə və sığorta qaydaları əleyhinə olan (Məcburi auditdən yayınma) inzibati xəta üzrə cərimələnməsidir. O da bildirilirdi ki, şirkət barəsində İnzibati Xətalar Məcəlləsinin 464-cü maddəsi ilə protokol irəli sürülüb. İnzibati Xətalar Məcəlləsinin həmin maddəsinə əsasən, "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə vəzifəli şəxslər 300 manatdan 600 manatadək, hüquqi şəxslər 1500 manatdan 2500 manatadək məbləğdə cərimə edilir.



İki ay əvvəl isə yerli KİV "Karmen" MMC-nin növbəti dəfə cərimə riski ilə üz-üzə qaldığını yazırdı. Qeyd olunurdu ki, ölkənin un bazarında əsas oyunçulardan olan şirkət barəsində İnzibati Xətalar Məcəlləsinin 271-ci (Sənaye və məişət tullantılarının qalaqlanması qaydalarının pozulmasına, göstərilən tullantıları yandırarkən ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsi ilə iş başlanıb. Vurğulanırdı ki, haqqında danışılan maddəyə əsasən, fiziki şəxslər 500 manatdan 800 manatadək, vəzifəli şəxslər 2000 manatdan 3000 manatadək, hüquqi şəxslər 6500 manatdan 8000 manatadək məbləğdə cərimə edilir.

Qeyd edək ki, xüsusilə son iki ildə Qasımovun ən məşhur şirkətinin az qala "həftə səkkiz, mən doqquz" cərimələnməsi maraq doğurur və müəyyən şübhələrə yol açır. Xüsusilə "Karmen"in əl dəyişdirə biləcəyi yönündə iddiaların olduğunu nəzərə alsaq, bu cür şübhələrə təsadüf kimi baxmaq olmur...

***Toğrul Əliyev***

04_27 IYUl-QARA.qxd 1/31/2025 12:06 AM Page 10



# Nazirlərdən milyonlarla manatlıq tenderlər alan holdinqlə bağlı yeni qalmaqal

## Tanınmış şirkətlər qrupuna daxil olan MTK-nın rəhbərinə niyə ölkədən çıxış qadağası qoyulub?

***"Mahal" Mənzil-Tikinti Kooperativinin sədrinin ölkədən çıxışına məhdudiyyət qoyulub. Qaynarinfo-nun məlumatına görə, "Mahal" MTK-a tərəfindən Binəqədi rayonunda vətəndaş Vaqif Həsənova (şərti) məxsus qaraj söküldüyü üçün razılaşdırılmış 57885 manat kompensasiya illərdir ödənilmir.Bu barədə məhkəmə qərarı olmasına baxmayaraq, "Mahal" MTK tərəfindən vətəndaşın kompensasiyasının ödənilməsi təmin edilməyib. MTK Binəqədi rayon İcra Şöbəsinin icraatına daxil olmuş icra sənədinin icrasından yayınıb.***

Məhkəmənin qərarı ilə MTK-nın qanuni təmsilçisi və sədri Rəhimov İlqar Vəliyəddin oğlunun ölkədən çıxışı məhdudlaşdırılıb.



O da məlum olub ki, MTK-nın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 194627.9 manat vergi borcu var. Bununla əlaqədar olaraq MTK-nın bütün bank hesablarına sərəncam qoyulub.

Qeyd edək ki, "Mahal" MTK, "Mahal Şirkətlər Qrupu"na daxil tikinti şirkətidir. "Mahal Şirkətlər Qrupu"nun qanuni təmsilçisi və direktoru Rəhimov Elvin Adil oğludur.

İlqar Rəhimov "Mahal" MTK-nın sədrinin vəzifələrini icra etdiyi müddətdə dəfələrlə qulluq mövqeyindən və vəzifə səlahiyyətlərindən sui-istifadə etdiyinə görə cinayət işi açılıb.

Lakin maraqlıdır ki, adı çəkilən şirkətin daxil olduğu holdinq son illərdə bir sıra iri tenderlərin qalibi olmağı bacarıb. Söhbət milyonlarla manatlıq dövlət satınalmalarından gedir. Məsələn, Elm və Təhsil Nazirliyi 2022-ci ildə "Mahal" Şirkətlər Qrupuna daxil olan "Mahal Konstruktion" MTK-nı qalib elan edib. Bir sıra təhsil müəssisələrində təmir-tikinti işlərinin (konkret olaraq Bərdə rayonu, Mehdili kənd 264 şagird yerlik tam orta məktəbin tikintisi işlərinin) satınalmasını nəzərdə tutan tenderin məbləği 4 milyon manata yaxın - 3 821 312 manat olub.

Şamaxı rayonunun Saqiyan kənd sakini Natiq Sadıqov isə iki il öncə yerli KİV-ə etdiyi müraciətində bildirib ki, 2020-ci ilin oktyabr-noyabr aylarında kənddə qəzalı vəziyyətdə olan bir evin təmir- bərpa işlərində çalışıb. Üç nəfərlə evin beton-karkas işlərindən tutmuş hörgüsünü və suvaq işlərini də bir ay ərzində gecə-gündüz çalışaraq təhvil verdiyini deyən şikayətçi bunun müqabilində üç nəfərə cəmi 350 manat əmək haqqı verildiyini bildirib. Natiq Sadıqov deyir ki, dövlət sifarişini yerinə yetirən "Mahal Şirkətlər Qrupu" MMC-nin rəhbərliyinə dəfələrlə müraciət etmələrinə baxmayaraq, gəlib başa çatdırdıqları tikintini ölçərək əmək haqlarını vermir, hər gün bir bəhanə ilə onları süründürürlər.

Bundan başqa, adıçəkilən holdinqin adı müxtəlif zamanlarda müxtəlif qalmaqallarda da hallanıb. Məsələn, 2024-cü ildə şirkət tanınmış paralimpiyaçı Ramin Əliyevin evinin "Mahal"? MTK tərəfindən sökülməsi ilə bağlı iddialarla da gündəmə gəlib. "Şirkətin rəhbəri məni hədələyir. Deyir razılaşmasan, evdən çıxmasan, sənə başqa cür təzyiq göstərəcəyik. Evimin hazırkı dəyəri çox qalxıb. Onların vediyi kompensasiya maksimum 140 mindir. Halbuki, biz o məbləğə ancaq çox kənardan ev ala bilərik. Onların verdiyi məbləğ 2 il öncə üçün yaxşı idi. Kimsə pul qazanacaq deyə biz özümüzə orada-burada yer axtarmalı olacağıq. Mən özüm paralimpiyaçıyam, proses çətindir, xəstə halımla bu problem mənə lazım deyil. "Mahal" MTK bizi çox incidir" - deyə idmançı "Qafqazinfo"ya müraciətində demişdi. İddialara cavab verən MTK-nın rəhbəri Elvin Rəhimov isə bildirmişdi ki, razılaşmanın olmamasının səbəbi vətəndaşın evin hər kvadratmetrinə 7 min manat istəməsidir. "Bu şəxsin 40 kvadratmetrlik əmlakı var, amma buna görə bizdən 250 min manat pul istəyir... Biz ona 140 min manat veririk. Sumqayıtda 140 min manata 2 dənə 2 otaqlı ev almaq olar. Hətta idmançı olduğu üçün ona dedim ki, 140 mindən əlavə müalicəsinə də 10 min dollarlıq kömək edərəm..."

2023-cü ildə isə Bakı şəhəri, Səbail rayonu, Xanlar küçəsi 55/57 ünvanlarında yaşayan sakinlər "Mahal" MTK-nın pilot layihəsinə etiraz əlaməti olaraq Nazirlər Kabinetinin qarşısında aksiya keçiriblər. "Belə ki, adı çəkilən bu tikinti şirkəti 2017-ci ilin may-iyun aylarında sakinləri yaşadıqları mənzillərindən zorla çıxarıb üzərinə lazımi öhdəliklər götürsə də, bu gün də həmin öhdəlikləri yerinə yetirmir" - həmin vaxt yerli KİV-lər yazmışdılar.

"Mahal Şirkətlər Qrupu"nun rəsmi saytındakı məlumatlardan isə bu holdinqin daşınmaz əmlak bazarında, layihələrin konsepsiyalarının hazırlanmasından, onların tikintisinə, satışına və hazır obyektlərin idarə olunmasına kimi tam spektr xidmətlər təklif etdiyi aydınlaşır. Sitat: ""Mahal" şirkətlər qrupuna daxildir - "Mahal" MTK, "Mahal Construction", "Mahal Sky Park" MTK, "Mahal Qarabağ". Şirkətin məqsədi Bakı şəhərinin və Azərbaycanın daşınmaz əmlak bazarında iri miqyaslı layihələrin icra edilməsidir. Bugünkü günə şirkətin əsas fəaliyyət istiqaməti - yaşayış komplekslərı layihələrinin həyata keçirilməsidir. Şirkət üçün, layihələrin vaxtında və keyfiyyətlə icra olunması başlıca amildir. Bu, ən yeni tikinti texnologiyalarının və keyfiyyətli tikinti materiallarının istifadə edilməsi, layihələrin idarə olunmasına peşəkar yanaşma və yüksək ixtisaslı mütəxəssislər heyətinin işi sayəsində mümkün olur. Biz nəinki gözəl yaşayış binaları tikirik, biz həmiçinin ticarət mərkəzləri, məktəblər, uşaq bağçaları, poliklinikalar, yaşıllıq zonaları və abad həyətlər də daxil olmaqla, əlverişli yaşayış mühiti yaradırıq".

O ki, qaldı son olaraq MTK-nın qanuni təmsilçisi və sədri Rəhimov İlqar Vəliyəddin oğlunun ölkədən çıxışının məhdudlaşdırılmasına, bununla bağlı nə adı çəkilən şirkətdən, nə də onun daxil olduğu şirkətlər qrupundan hər hansı münasibət bildirilməyib.

***Sənan Mirzə***

# "İlkin səhiyyə xidməti hansı ölkədə güclüdürsə..." - Agentlik sədri

***"İcbari tibbi sığortanın tətbiqinin əsas məqsədi ondan ibarətdir ki, insanlara tibbi xidmət əlçatan olsun. Əhalimizin hamısı sağlam olsunlar. İlkin səhiyyə xidməti bunun təşkilində ən böyük rol oynayan hissədir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsində keçirilən dinləmədə çıxışı zamanı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev deyib.

"Bizim üçün ən vacib məsələ odur ki, əhalimiz yaşadığı regiondan asılı olmayaraq, hansı bölgədə yaşayırsa, orada hər birinə bərabər şəkildə tibbi xidmətin əlçatanlığı təmin olunsun. İlkin səhiyyə xidməti hansı ölkədə güclüdürsə, həmin ölkədə insan ömrünü uzadır, əhali daha sağlam yaşayır. İlkin səhiyyə xidməti əlaqələndirici zəncirin bir hissəsidir. İlkin səhiyyə xidməti nə qədər güclü olsa, müraciət edən şəxs düzgün şəkildə əlaqələndiriləcək. Burada söhbət sadəcə göndərişdən getmir".

***Anar Kəlbiyev***

# Əhalinin banklardakı əmanətləri rekord səviyyəyə çatıb

***Azərbaycanda əhalinin banklardakı əmanətləri rekord səviyyəyə çatıb.***

"Unikal" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu il yanvarın 1-nə əhalinin banklardakı əmanətləri 14 mlrd. 661,9 mln. manat təşkil edib ki, bu da indiyədək olan ən yüksək göstəricidir.

Əhalinin banklardakı əmanətləri əvvəlki ayla müqayisədə 3% və ya 426,3 mln. manat, son bir ildə isə 13,2% və ya 1 mlrd. 714,1 mln. manat artıb.

Qeyd edək ki, əhalinin banklardakı əmanətlərinin həcmi 2021-ci ildən etibarən davamlı artım tendensiyası nümayiş etdirir.

# Nazir Adil Kərimli Qəbələdə vətəndaş qəbulu keçirəcək

***Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən mədəniyyət naziri Adil Kərimli fevralın 28-də saat 10:00-da Qəbələ rayon Mədəniyyət Mərkəzində (ünvan: Qəbələ şəhəri, Həzi Aslanov, 28) Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala və Balakən rayonlarından olan vətəndaşlarla görüşəcək.***

Mədəniyyət Nazirliyindən "Unikal"a verilən məlumata görə, vətəndaşlar fevralın 24-dək nazirliyin info@culture.gov.az elektron poçt ünvanı, (012) 493-43-98 telefon nömrəsi vasitəsilə müraciət etməklə qəbula yazıla bilərlər.

# Bu restoranda mənşəyi bilinməyən məhsullar aşkarlandı

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları Gəncə şəhəri, Nizami küçəsi, 190 ünvanında Ələkbərov Elvin Elçin oğluna məxsus "Ulduzlu gecə" şadlıq sarayında planlı yoxlama aparıblar.***

Agentliyin İnformasiya təminatı və innovativ həllər şəbəsindən "Unikal"a verilən məlumata görə, şadlıq sarayında qida təhlükəsizliyi tələblərinin pozulduğu, mal qonşuluğu prinsipinə əməl olunmadığı müəyyən edilib, həmçinin mənşəyi məlum olmayan məhsullar aşkarlanıb.

Faktla bağlı məhdudlaşdırıcı qərar tətbiq edilib, sahibkar barəsində inzibati tədbir görülüb və icrası məcburi göstərişlər verilib.

04_27 IYUl-QARA.qxd 1/31/2025 12:06 AM Page 11






# Xaçmaz və Xudatda əhali içməli su ilə təmin olunur

***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) tabeliyində olan Xaçmaz Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi 2025-ci ilin istismar tədbirlər planına uyğun olaraq rayon ərazisində əkin sahələrinin suvarma suyu ilə təmin olunması, o cümlədən əhalinin fasiləsiz olaraq içməli su ilə təminatı istiqamətində tədbirlərini davam etdirir.***

Bu barədə ”Unikal”a Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən (ADSEA) məlumat verilib.

Bildirilib ki, idarə tərəfindən əkin sahələrinə suvarma suyunu çatdırmaq üçün 2180 km-ə yaxın suvarma kanallarından istifadə olunur ki, bu kanalların 278 km-i beton üzlüklü, 114 km-i qapalı, 2.56 km-i nov kanal, 1783 km-i isə torpaq məcralıdır. Xaçmaz Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi selə qarşı mübarizə tədbirlərini də operativ şəkildə aparır. Bunun üçün idarənin balansında ümumi uzunluğu 2654 paqonomtr bənd mövcuddur. Bundan 2174 paqonometr daş-beton, 480 paqonometri isə dəmir-beton bəndlərdir. Əkin sahələrinin və yaşayış məntəqələrinin sel sularından mühafizəsini təşkil etmək üçün texnikalar vasitəsilə çay məcralarında təmizləmə işləri də plana uyğun olaraq həyata keçirib.

Bundan başqa rayon ərazisində içməli su təchizatı və kanalizasiya şəbəkəsinə xidmət məqsədi ilə idarə əməkdaşları gücləndirilmiş iş rejimində çalışır. Belə ki, baş verən su və kanalizasiya qəzaları operativ şəkildə aradan qaldırılır.

Qeyd edək ki, Xaçmaz Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi suvarma suyunun əkin sahələrinə maneəsiz çatdırılması üçün ötən il suvarma kanallarının 734 min m3-i lildən təmizlənib. Şoranlaşmanın qarşısını almaq üçün kollektorlarda da bu işlər 67 min m3-ə yaxın hissədə aparılıb. Selə qarşı mübarizə tədbirləri çərçivəsində isə 529 min m3 çay məcrasında təmizləmə işləri aparılıb.

# Biləcəridə əl qumbarası aşkarlandı

***Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi ərazisində sursat aşkar edilib.***




”Unikal” xəbər verir ki, bu barədə Fövqəladə Hallar Nazirliyi (FHN) məlumat yayıb.

Bildirilib ki, hüquq-mühafizə orqanı əməkdaşları ilə birgə ərazidə müvafiq təhlükəsizlik tədbirləri görüldükdən sonra hadisə yerinə baxış zamanı aşkar edilmiş sursatların döyüş tətbiqinə yararlı iki RQD-5 əl qumbarası və iki ədəd UZRQM partladıcısı olduğu müəyyən edilib.

Sursatlar XRXX-nin çevik qrupunun mütəxəssisləri tərəfindən zərərsizləşdirilməsi üçün ərazidən götürülərək kənarlaşdırılıb.

Hadisə yerində və ona yaxın ətraf ərazidə əlavə axtarış zamanı başqa hər hansı təhlükəli və ya şübhəli əşya aşkar edilməyib.

# Lütvəli Babayevin oğlu hotellərdə qalıb

## Həftənin replikası: sabiq icra başçısı özünün saysız-hesabsız mənzillərindən birini niyə ona qıymır?

***Zərdab rayonunun sabiq icra başçısı Lütvəli Babayevin oğlu Babəli Babazadə evsizdir, yaşamağa mənzil tapmır, ona görə də hotellərdə qalır. Hətta iş o yerə çatıb ki, subay olan Babazadə məhz evsizlik səbəbindən ailə də qura bilmir.***

Bunu havadan yazmırıq!

Bunu sabiq icra başçısının oğlu deyib. Həm də ona qarşı dələduzluqda ittiham olunan sabiq baş həkim Aruz Əliyev və onun tanışı Ehtiram Kərimovun cinayət işi üzrə məhkəmə prosesində!

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Mahirə Kərimovanın sədrliyi ilə təxminən üç həftə öncə keçirilən prosesə zərərçəkmiş də qatılıb. Özü də ilk dəfə!

Hakim onun hüquqlarını izah edərkən məlum olub ki, Babəli Babazadə subaydır, hazırda heç bir yerdə işləmir. Sabiq icra başçısının biznesmen oğlu sərbəst ifadəsində Aruz Əliyevi tanıdığını, onun Zərdab rayonunda baş həkim işlədiyini deyib.

Babazadənin sözlərinə görə, Azərbaycanda olanda vergi ilə bağlı problemi yaranıb: ”Həmin dövrdə Aruz Əliyev bizə gəlib-gedirdi. Çünki evdə xəstə olanda bir həkim kimi onu çağırırdıq. Aramızda səmimiyyətimiz yaranmışdı. Mənim vergi ilə bağlı problemimi ona dedim. O da mənim təcili Türkiyəyə getməyimi məsləhət gördü. Onun məsləhəti ilə Türkiyəyə getdim. Orada olanda Aruz Əliyevlə əlaqə saxladım. Mənə dedi ki, haqqımda qırmızı ”stop” var, qayıtma, problem olacaq. Sonra da mənə dedi ki, Ehtiram adlı şəxs var, məsələni o həll edəcək. Məni Ehtiramla əlaqələndirdi. Türkiyədə Ehtiram gəlib mənimlə görüşdü. İşlərimi yoluna qoymaq üçün etibarnamə verməyimi məsləhət bildi. Mən ona etibarnamə verdim. Bu etibarnamə əsasında Ehtiram mənim evimi satdı. Sonradan pul lazım oldu, ondan pulumu istədim, mənə 30 min dollar verdi. Qalanını istədim, pulumun qalığı olmadığını söylədi. Mən Azərbaycana gəldim...” Bu zaman təqsirləndirilən Ehtiram Kərimov zərərçəkənin sözünü kəsib, ”Pişik asqırdı, Azərbaycana gəldin... Sənin vergi məsələni biz həll etdik ki, rahat gəldin” deməklə mübahisə yaradıb.

Təqsirləndirilən şəxslə Babəli Babazadənin arasında yaranan mübahisəni hakim sakitləşdirib. Ehtiram Kərimov əlavə edib ki, sənədləşmə işlərini görüblər, nəticədə Babəli Babazadə Azərbaycana qayıdıb. Onun sözlərinə görə, satılan mülklərdən əldə olunan pullarla vergi işləri yoluna qoyulub. Zərərçəkmiş isə onların heç bir iş görmədiklərini deyib. Bildirib ki, mülkləri əlindən çıxıb: ”Mən rüsvay olmuşam. Əlimdə heç nə qalmayıb. Bu gün subayam, evlənə bilmirəm. Mənə sübut etsinlər ki, pullar hara xərclənib. Mənim evimi versinlər. Yaşamağa yerim yoxdur, otellərdə qalmışam. Elə vəziyyətə düşmüşəm ki, evlənə də bilmirəm”.

Növbəti proses fevralın 6-da davam edəcək.

Qeyd edək ki, Babəli Babazadənin dostu Aruz Əliyev üçüncü şəxslə əlbir olaraq onun əmlaklarını 2 milyon manata sataraq pulu mənimsəməkdə ittiham olunur. Bu hadisə baş verməzdən əvvəl isə Babəli Babayevin sahibi olduğu tikinti şirkətinin 1 milyon manat vergi borcu yaranıb. Bununla bağlı ona rəsmi məktub gəlib, verginin ödənməli olduğu xatırladılıb. Məsələylə bağlı Babəli dostu Aruz Əliyevlə məsləhətləşib, ondan nə edə biləcəyini soruşub. İddia olunur ki, Aruz külli miqdarda vergi borcu yaranmış Babəliyə ölkədən çıxmağı məsləhət bilib. O, tanışı Ehtiram Kərimovla əlbir şəkildə eks-icra başçısının oğlunun Türkiyəyə qaçmasını təşkil ediblər.

Babəli Türkiyədə yaşadığı müddətdə Bakıdakı əmlaklarını idarə etmək üçün Aruza etibarnamə verib. Əmlaklar satışa çıxarılıb. Dediyinə görə, Aruz onun etibarından sui-istifadə edib. Aruz və Ehtiram Babəlinin əmlakını ümumilikdə 2 milyon manata satıblar, pulu sahibinə verməmədən şəxsi mənafelərinə sərf ediblər.



Aruz Əliyev özü həkim-cərrahdır. Bu cinayətin üstü açılana kimi ”Uniklinika”nın baş həkimi olub. Zərərçəkmiş şəxsin şikayəti əsasında baş həkim Aruz Əliyev və Ehtiram Kərimov polis əməkdaşları tərəfindən tutulub. Onlara dələduzluq maddəsinin ən ağır bəndi ilə ittiham irəli sürülüb, hər ikisi haqda həbs qərarı verilib.

İstintaq dövründə keçmiş icra başçısı Lütvəli Babayev də dindirilib. O, cinayət işi üzrə şahid qismində tanınıb.

Təqsirləndirilən şəxslər isə ittihamları qəbul etmirlər. Onlar deyirlər ki, zərərçəkmiş əmlaklarını könüllü satdırıb, pulunu da Türkiyədə xərcləyib. İttiham olunan tərəfin iddiasına görə, Babəli ailəsinin əmlakını satıb xərclədikdən sonra vəziyyətdən çıxmaq məqsədilə dostundan istifadə edib.

Digər məlumata görə, Babəli Türkiyəyə qaçmazdan əvvəl xırda xuliqanlığa görə 15 gün həbsdə qalıb. Buraxıldıqdan dərhal sonra isə ölkədən gedib.

Xatırladaq ki, Lütvəli Babayev 2005-2007-ci illərdə Mingəçevirin, 2007-2019-cu illərdə isə Zərdabın icra başçısı işləyib.

İri biznesə, böyük sərvətə malik olan sabiq başçının paytaxt Bakı da daxil olmaqla ölkədə və onun hüdudlarından kənarda çox sayda mənzilləri var. Hətta atası vəzifədə olarkən B.Babazadə Binəqədi rayonunun 7-ci mikrorayon Abay Kunanbayev küçəsində, 3123-cü məhəllədə 12 mərtəbəli bina tikib. Binanın sahəsi 10 min kvadrat metrə yaxın olub. Lakin Lütvəli müəllimin oğlu indi evinin olmadığını, bu səbəbdən hoteldə qaldığını və evlənə bilmədiyini deyir!

Biz sözügedən qalmaqalda kimin haqlı, kimin haqsız olduğunu deyə bilmərik, bu suala yəqin ki, məhkəmə prosesi sona çatdıqdan sonra aydınlıq gələcək. Sadəcə, bir məqama diqqət çəkmək istəyirik: sabiq icra başçısının oğlunun timsalında bir daha məlum olur ki, bizdə bəzi məmurlar, onların ailə üzvləri ya özlərini çox ağıllı, ya da cəmiyyəti çox sadəlövh sayırlar və söylədikləri hər sözə insanların inanacaqlarını düşünürlər. Əks təqdirdə Babəli Babazadə kimi absurd açıqlamalarla çıxış etməzdilər.

Başa düşürük, keçmiş, yaxud indiki məmurların, onların ailə üzvlərinin sanki korrupsiya hesabına varlanmadıqlarını gözə soxmağa, özlərini “süddən çıxmış ağ qaşıq” kimi göstərməyə əşhədü-ehtiyacları var, ancaq bizdən məsləhət: bu zaman dozanı çox eləməsinlər ki, qaş qayırarkən vurub göz də çıxarmasınlar, cəmiyyətdə gülüş obyektinə çevrilməsinlər. Düzdür, bəzi vəzifəli şəxslərin acgözlüyü, büdcə talanı sayəsində camaat çörəyi güclə tapır, ancaq o çörəyi heç də qulağına yemir...

***Sənan Mirzə***

04_27 IYUl-QARA.qxd 1/31/2025 12:06 AM Page 12



## 5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İKT bacarıqlarına məktəbdə yiyələnən nəsil yetişir

### Nazirlik: "STEAM layihəsi cari tədris ilindən 398 təhsil müəssisəsində tətbiq olunur və ümumilikdə 250 000 şagirdi əhatə edir".



***İnformasiya və kommunikasiya texnologiyalarından bütün sahələrdə istifadə günün əsas tələbinə çevrilib. Əvvəllər İKT-dən istifadəyə məhdud sahələrdə rast gəlinirdisə, bu gün İKT həyatımızın bütün sferalarına sirayət edib. Ona görə də, artıq təhsildə informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə, öyrənilməsinə xüsusi önəm verilir. Artıq ümumtəhsil müəssisələrində şagirdlərin İKT bacarıqlarının inkişafına başlanılıb. Yaqin ki, məktəblərdə STEAM siniflərlə bağlı eşitmisiniz. STEAM təhsil metodunun tətbiq olunduğu məktəblərin sayı isə günü-gündən artmaqdadır.***

Elm və Təhsil Nazirliyindən sorğumuza verilən cavabda bildirilir ki, STEAM layihəsi cari tədris ilindən 398 təhsil müəssisəsində tətbiq olunur və ümumilikdə 250 000 şagirdi əhatə edir.

Ümumiyyətlə son illərdə təhsildə rəqəmsal bacarıqların inkişafına xüsusi yer verilir. 2017-ci ildən ölkədə tətbiq edilən "Rəqəmsal bacarıqlar" layihəsi 2024-2025-ci tədris ilində əlavə 230 təhsil müəssisəsində tətbiq edilib. Hazırda layihə 510 000 şagirdi əhatə edir.

STEAM Azərbaycan layihəsindən bildirdilər ki, "STEAM Azərbaijan" layihəsi 2019-2020-ci tədris ilindən start götürüb. STEAM təhsil metodu 5 əsas disiplinlərin birləşik şəkildə təşkilidir. "STEAM təhsilinin əsası müxtəlif fənlərdən birlikdə istifadə etmək, layihələr hazırlamaq və bu layihələri istehsalata çevirərək həyata keçirməkdir. Elm (Science), Texnologiya (Technology), Mühəndislik (Engineering), İncəsənət (Art), Riyaziyyatın (Math) birgə və inteqrasiya olunmuş şəkildə tədris etmək ideyası üzərində qurulub. STEAM layihəsinin əsas məqsədi Respublikanın ümumtəhsil məktəblərində təhsil alan şagirdlərdə XXI əsr bacarıqlarını - kreativlik, tənqidi düşünmə, əməkdaşlığın inkişaf etdirilməsi, praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərməklə yanaşı, onlara mühəndislik səriştələri öyrətmək, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə edə bilmə qabiliyyətlərini yüksəltməkdir.

Bu ildən STEAM ibtidai siniflərin sonunda keçirilir. STEAM dərsləri "3D çap", "Microbitlə proqramlaşdırma", "Elektrik mühəndisliyi", "Biotexnologiya", "Nanotexnologiya", "Robototexnika", "Gen mühəndisliyi", "CNC lazer kəsiciləri", "Pilotsuz uçuş aparatları (tədris dronları)" üçün hazırlanmış kurikulum üzrə təşkil olunur. STEAM məktəblərdə baza fənləri digər məktəblərdə olduğu kimi tədris olunur. Bu yalnız tədris proqramlarında dərsdənkənar məşğələ saatlarının hesabına aparılır. STEAM təhsil metodu ilə təhsil alan uşaqlarda İKT bacarıqları kiçik vaxtdan formalaşır. Artıq onlar 3D print avadanlığı vasitəsilə hər hansı bir fiquru, əşyanı hazırlayıb çap edə bilirlər. Bu innovativ yanaşma təhsilin inkişafında böyük sıçrayışa səbəb olub.Beş ildir ki, təhsildə tətbiq olunan bu yenilik artıq səmərə verir. STEAM Azərbaycan layihəsi hazırda 398 dövlət ümumtəhsil məktəbini, peşə məktəblərini, eləcə də 250 min şagirdi əhatə edir. "Sabahın alimləri"nin yetişməsində STEAM-ın rolu böyükdür.

3 min müəllim STEAM layihəsində dərs keçmək üçün cəlb edilib. Onların 70%-i ibtidai sinif müəllimləridir. Bu günə qədər isə 6 min müəllim bu layihəyə cəlb olunub. Həmin müəllimlər təlimlər keçərək püxtələşiblər.

Qeyd edək ki, STEAM təhsil metodunun tətbiq olunduğu məktəbin ilk növbədə sabit internet təminatı olmalıdır. Həmçinin nümunəvi sinif otağı olmalı, həmin otaq kompüterlər və 3D print avadanlığı ilə təmin olunmalıdır. Bu şəraiti olan məktəblərdə STEAM təhsil metodu tətbiq olunur.

Ümumtəhsil müəssisələri ilə yanaşı, STEAM təhsil ali təhsildə də tətbiq olunur. Belə ki, Azərbaycan Dövlət Pedoqoji Universitetinin fizika fakultəsinin bazasında STEAM Mərkəzi qurulub.

Məlumat üçün bildirək ki, "STEAM Azərbaycan" layihəsinin məqsədi təhsilalanlarda XXI əsr bacarıqlarını - tənqidi və yaradıcı düşüncə, əməkdaşlıq, effektiv ünsiyyət və problemlərin həllində innovativ yanaşma qabiliyyətlərini inkişaf etdirməkdir. Layihə praktiki və yaradıcı öyrənmə mühitinin qurulması vasitəsilə müxtəlif fənlərin inteqrativ yanaşma əsasında tədrisini təşviq edir. Təhsilalanlar real həyat problemlərinin həllinə yönəlmiş layihələr üzərində işləyərək nəzəri biliklərini praktikada tətbiq etməyi öyrənirlər. Hazırda Bakı, Xırdalan, Sumqayıt, Quba, İsmayıllı, Ağdaş, Bərdə, Tovuz, Şəmkir, Zaqatala, Qax,Sabirabad, Şirvan, Lənkəran, Mingəçevir, Gəncə STEAM mərkəzlərində şagirdlər müxtəlif proqramlar üzrə təlimlərdə iştirak edirlər.

Ölkə üzrə 3000-dən çox şagird STEAM mərkəzlərində sadalanan proqramlar əsasında müxtəlif yaş qrupları üçün nəzərdə tutulan "Art-Lab", "CodeLab", "Mexatronika və robototexnika", "Peyk texnologiyaları", "Dron texnologiyaları", "Proqramlaşdırılan sistemlər", "Alternativ enerji mənbələri", "ROV və AUV sistemləri", "Pilotsuz gəmi sistemləri" üzrə təlim proqramlarından yararlanır. Ölkə üzrə 19 STEAM Mərkəzi fəaliyyət göstərir. Eyni zamanda bu dərs ilindən layihə işğaldan azad edilmiş ərazilərdə də tətbiq olunur.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## İnternetlə bağlı prioritetlər müzakirə olundu

***Yanvarın 28-də Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən rəhbərliyi həyata keçirilən "İnternetə qoşulma və internet infrastrukturu" İşçi qrupunun növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda Komissiya Katibliyinin rəhbəri, İşçi qrupun rəhbəri və üzvləri, eləcə də özəl sektor nümayəndələri iştirak ediblər.

İclasda Dünya Bankı Qrupunun "Business Ready" hesabatının "Kommunal xidmətlər (internet)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il Yol Xəritəsi üzrə görülmüş işlərin müzakirəsi aparılıb və 2025-ci il üçün qarşıda duran vəzifələr müəyyən edilib.

İşçi qrupun rəhbəri, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Şahin Babayev açılış çıxışı edərək biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması məqsədilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən müvafiq tədbirlərin görüldüyünü qeyd edib.

Eyni zamanda bildirib ki, Yol Xəritəsinin həyata keçirilməsində maraqlı tərəf olaraq biznes və ictimaiyyət nümayəndələrinin məlumatlandırılması, onların islahatların hazırlanması və həyata keçirilməsi prosesində aktiv iştirakı böyük rol oynayıb. Eyni zamanda rəylərin təqdim olunması üçün əlverişli imkanların yaradılması bu sahədə həyata keçirilmiş kompleks tədbirlərin səmərəliliyinin artırılmasına xidmət edib.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya Katibliyinin rəhbəri, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev "Business ready" hesabatının internet infrastrukturu ilə bağlı göstəricilərin yaxşılaşdırılmasında İşçi qrupun fəaliyyətinin mühüm rol oynadığını qeyd edib. V.Şıxəliyev bençmarklar əsasında internet infrastrukturunun diaqnostikasının aparıldığını və 2025-ci il üzrə təkmilləşdiriləli sahələrin müəyyən edildiyini diqqətə çatdırıb.

Bildirib ki, bugünkü iclasda əsas məqsədimiz 2025-ci il üzrə qarşıda duran vəzifələri müəyyənləşdirərək növbəti ilin Yol Xəritəsini təkmilləşdirməkdir ki, bu tədbirlərin icrası yekunda həm biznes mühitinə, həm də "Business Ready" hesabatının "Kommunal xidmətlər (internet)" indikatoruna müsbət təsir etsin.

Məlumat üçün bildirək ki, Komissiyanın "İnternetə qoşulma və internet infrastrukturu" İşçi qrupuna rəhbərliyi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

## Azərbaycanda daha 41 nəqliyyat vasitəsi özəlləşdirilib

***İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin keçirdiyi növbəti hərracda 4 lot üzrə 41 nəqliyyat vasitəsi satılıb.***

Bu barədə "Unikal"a Dövlət Xidmətindən məlumat verilib. Hərraca çıxarılan əmlaklara ümumilikdə 32 sifariş qəbul edilib. Rəqabətli keçən hərracda ilkin qiyməti 46 100 manat olan 19 nəqliyyat vasitəsi 100 000 manata satılıb. Digər lot üzrə isə 15 nəqliyyat vasitəsinin start qiyməti 35 200 manat olsa da, son təklif 52 min manata yüksəlib.

Hərracda satılan nəqliyyat vasitələrinin siyahısı ilə bit.ly/40Ah581 linki vasitəsilə tanış olmaq mümkündür.

Hərracda iştirak etmək istəyənlər "www.emlak.gov.az" və "www.auksion.gov.az" internet saytlarından hərraca çıxarılan əmlaklar üzrə seçim edə bilərlər.

# Regionlarda bu xəstəliklər artıb



***“Regionlarda ana ölümü ilə bağlı göstəricilər, regionlar arasında tibbi xidmətin keyfiyyətində olan ciddi fərqlər və bəzi xəstəliklər üzrə artım tempi ilə bağlı görüləcək işlər var”.***

”Unikal” xəbər verir ki, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müşaviri İsa Əliyev Milli Məclisin Səhiyyə komitəsinin təşkil etdiyi “İlkin səhiyyə xidməti: mövcud vəziyyət, görülən işlər, problemlər və onların həlli yolları” mövzusuna həsr olunan dinləmədə bildirib.

“Regionlarda qan dövranı, endokrin və tənəffüs orqanları sisteminin xəstəlikləri artır və bu, xəstələnmə hallarının 30%-ni əhatə edir. Çünki bu elə bir xəstəliklərdir ki, ilkin səhiyyə xidmətində kordinasiyalı şəkildə idarə oluna və ya erkən aşkarlanma vasitəsilə azaldıla bilər”, - deyə İ.Əliyev qeyd edib.

***Anar Kəlbiyev***

# Muxtar Babayev Baş katiblə görüşdü

***Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Baş katibi Lazar Komanesku ilə görüşüb.***



”Unikal” xəbər verir ki, görüş zamanı iqlim dəyişmələri, təhlükəli hava hadisələrinin erkən xəbərdarlığı və ətraf mühitin digər sahələri üzrə QDİƏT çərçivəsində əməkdaşlıq perspektivləri müzakirə edilib.

Eyni zamanda ölkəmizin 2024-cü ildə ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasının (COP29) nəticələri barədə fikir mübadiləsi aparılıb.

# BDU ilk dəfə "Şanxay reytinqi"ndə TOP 500-də yer alıb

***Dünyanın ən nüfuzlu reytinqlərindən biri hesab olunan “Şanxay reytinqi” (”Shanghai ranking”) tərəfindən “Akademik Fənlərin Qlobal Reytinqi” dərc olunub.***

”Unikal” xəbər verir ki, Bakı Dövlət Universiteti ilk dəfə sözügedən reytinqdə riyaziyyat fənni üzrə təmsil olunur. Belə ki, Bakı Dövlət Universiteti reytinqdə 401-500-cü pillələr arasında yer alıb.

Azərbaycan bu reytinqdə riyaziyyat fənni üzrə Cənubi Qafqaz regionunu təmsil edən yeganə ölkədir.

Qeyd edək ki, “Akademik Fənlərin Qlobal Reytinqi”ndə təbiət elmləri, mühəndislik, həyat elmləri, tibb elmləri və sosial elmlər daxil olmaqla 5 geniş sahə və 55 fənn üzrə dünyanın 96 ölkəsindən 1900-dən çox universitet yer alır. Bu reytinq müvafiq fənlər üzrə dünya universitetlərinin fəaliyyətini 5 kateqoriyaya (dünya səviyyəli akademik heyət, dünya səviyyəli elmi göstəricilər, yüksək keyfiyyətli tədqiqat, tədqiqat təsiri və beynəlxalq əməkdaşlıq) əsasən qiymətləndirir.

Azərbaycandan müvafiq reytinqdə yer alan Azərbaycan Universitetini də təbrik edirik.

# Xocalıya növbəti köç olacaq

***Yanvarın 31-də Xocalı rayonunun Ballıca kəndinə növbəti köç baş tutacaq.***

Modern.az xəbər verir ki, daha 23 ailədən ibarət 100 nəfər doğma yurda qayıdacaq. Kəndə köçəcək ailələrin siyahısı dəqiqləşdirilib.

Köç karvanı respublikanın müxtəlif şəhər və rayonlarında ağır şəraitdə müvəqqəti məskunlaşmış ailələrdən ibarət olacaq. Ballıca kəndində dövlət başçısının göstərişi əsasında keçmiş məcburi köçkünlərin bərpa edilən fərdi yaşayış evlərində məskunlaşması üçün bütün şərait yaradılıb.

Qeyd edək ki, bu günə qədər Xocalı rayonunun Ballıca kəndinə üç köç karvanı olub. Kənddə 68 ailə (373 nəfər) məskunlaşıb.

# Təqaüdə çıxan həkimlərin bu sahədə fəaliyyət göstərməsi təklif olunur

***”Ailə həkimi institutu yaradılıb və 2020-ci ildən etibarən Tibbi Universitetində ailə həkimi rezedentura ixtisası üzrə qəbul həyata keçirilir.***

Hazırkı vaxta qədər 30 nəfər bu proqram üzrə imtahandan keçib, tədris üçün qəbul olunub. Cəmi 5 nəfər bu proqramı yekunlaşdırıb. Bu say Azərbaycanda ilkin səhiyyə xidmətində ailə həkiminə olan tələbatı ödəmir. Ailə həkimi sahəsində çalışmaq imkanı olan terapevtlərimiz, pediatrlarımız var. Gənc həkimlərimizin regionlarda çalışmaları üçün sosial dəstəyə ehtiyac var”.



”Unikal” xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin iclasında ”İlkin səhiyyə xidməti: mövcud vəziyyət, görülən işlər, problemlər və onların həlli yolları” mövzusunda ictimai dinləmədə Səhiyyə Nazirliyinin Tibb müəssisələrinin Akkreditasiyası və keyfiyyətə nəzarət Mərkəzi PHŞ-ın İdarə Heyətinin sədri vəzifələrini müvəqqəti icra edən Şərafət İsmayılova deyib.

”Regionlarda təqaüd yaşına çatmış tibb personalının, xüsusilə həkimlərin xüsusi kurs keçəndən sonra regionlarda ailə həkimi kimi fəaliyyət göstərməsi icazənin verilməsini təklif edirik”, - deyə Ş.İsmayılova bildirib.

O, regionlarda çalışan gənc həkimlər üçün sosial təminat paketinin genişlənməsi istiqamətində addımların atılmasını təklif edib.

***Anar Kəlbiyev***

# Keçmiş məcburi köçkünlər sosial müdafiə tədbirləri ilə bağlı maarifləndirilib

***Məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri onların sosial müdafiəsinin səmərəli təşkilidir.***

”Unikal” xəbər verir ki, “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanununda keçmiş məcburi köçkünlər üçün bir sıra sosial müdafiə tədbirləri nəzərdə tutulur. Bunlardan biri də sosial müdafiəyə ehtiyacı olan məcburi köçkünlərin yararlandığı, dövlət büdcəsinin vəsaiti hesabına ödənilən vahid aylıq müavinətdir.

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən doğma yurduna qayıtmağa hazırlaşan və işğaldan azad edilmiş ərazilərə yeni salınmış yaşayış məntəqələrində məskunlaşan əhali arasında aparılan məlumatlandırma, təbliğat-izahat və maarifləndirmə işləri çərçivəsində onlara sosial müdafiə tədbirləri, o cümlədən vahid aylıq müavinətin qanunvericilikdə nəzərdə tutulan başaçatma müddətləri, müddətin axımı, habelə bunun qanuniliyi və zərurliyi məsələləri də ətraflı izah edilir.



Bununla əlaqədar olaraq, növbəti tədbir Xocalı rayonunun Ballıca kəndinə köçürülən 32 ailə arasında keçirilib. Dövlət Komitəsində keçirilən tədbirdə məcburi köçkünlərin sosial müdafiəsi məsələləri və vahid aylıq müavinətin daimi yaşayış yerinə geri qayıtmış şəxslərin üç il müddəti başa çatdıqdan sonra dayandırılacağı haqqında hazırlanmış videoçarx məcburi köçkünlər üçün nümayiş etdirilib. Qeyd edilən video çarx, mediada mütəmadi olaraq yayımlanır.

Xatırladaq ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Dövlət Komitəsi tədbirlər planına uyğun olaraq aidiyyəti şöbə, yerli nümayəndəliklər və Mənzil-Kommunal İstismar Sahələri tərəfindən məcburi köçkünlərlə mütəmadi olaraq qanunvericiliyin tələbləri barədə maarifləndirici görüşlər keçirilir, sosial müdafiə tədbirlərinə dair məlumat kitabçaları və broşürlər hazırlanaraq məcburi köçkünlərə təqdim olunur, videoçarxlar çəkilir.

# “Sağlam doğuşlar üçün həkimlərə bonuslar veriləcək”

***“Məqsədimiz xidmətlər zərfində olan 35 ilkin tibbi xidməti yaxın 5 ildə 150-yə çatdırmaqdır”.***

”Unikal” xəbər verir ki, bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müşaviri İsa Əliyev Milli Məclisdə “İlkin səhiyyə xidməti: mövcud vəziyyət, görülən işlər, problemlər və onların həlli yolları” mövzusuna həsr olunan dinləmədə bildirib.

“Bərdədə tətbiq olunan pilot layihədə bu xidmətlərin sayı 83-ə çatdırılacaq. Bu il Bərdədə pilot qaydada ana-



uşaq sağlamlığı ilə bağlı bonusların verilməsinə başlanılması nəzərdə tutulub. Bunun üçün həkimlərə motivasiya verilməsi düşünülür. Hamilə qadınların qeydiyyatı, sağlam doğuşunun həyata keçirilməsi üçün həkimlərə bonuslar veriləcək”.

İsa Əliyev əlavə edib ki, regionlarda ana ölümü göstəriciləri, regionlar arasında tibbi xidmətin keyfiyyətində olan ciddi fərqlər və bəzi xəstəliklər üzrə artım tempi ilə bağlı görüləcək işlər var: “Qan dövranı, endokrin və tənəffüs orqanları sisteminin xəstəlikləri artır və bu, xəstələnmə hallarının 30%-ni əhatə edir. Çünki elə xəstəliklərdir ki, ilkin səhiyyə xidmətində koordinasiyalı şəkildə idarə oluna və ya erkən aşkarlanma vasitəsilə azaldıla bilər”.

04_27 IYUl-QARA.qxd 1/31/2025 12:07 AM Page 15



## Gürcüstan Bakı ilə İrəvan arasında vasitəçi olmaq istəyir

***"Gürcüstan regionda sabitliyin və sülhün möhkəmləndirilməsi üçün vasitəçi kimi çıxış etmək arzusundadır".***

"Unikal" xəbər verir ki, bunu Gürcüstanın xarici işlər naziri Maka Bojçorişvili İrəvanda erməni həmkarı Ararat Mirzoyanla keçirdiyi birgə mətbuat konfransında deyib.

"Regionda sabitliyi və sülhü möhkəmləndirmək üçün Gürcüstan vasitəçi kimi çıxış etmək istəyir. Biz qonşu ölkələrimiz arasında gedən bu sülh prosesini asanlaşdırmağa hazır olduğumuzu bildirəcəyik. Gürcüstan sabit sülh görmək arzusuna sadiqdir", - Boçorişvili bildirib.

O, sülh sazişinin hər iki tərəf üçün məqbul sayılan müddəalarla ümumiləşdiriləcəyinə ümid etdiyini bildirib. Gürcü diplomatın fikrincə, regionda sabitlik üçün yalnız bu əsas ola bilər. Boçorişvili Gürcüstanın qonşuları ilə əməkdaşlığa hazır olduğunu da vurğulayıb: "Ermənistan və Gürcüstan bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət edir və bunu gələcəkdə də edəcək. Biz bu regionda ikitərəfli məqbul layihələrin yaradılması üçün səylərimizi gücləndirməyə hazırıq".

***Ağarza Elçinoğlu***

## Türkiyənin hərbi rəhbərliyi Suriyada

***Türkiyə Milli Müdafiə Nazirliyinin yüksək rütbəli hərbi heyəti Dəməşqdədir.***

"Unikal" xəbər verir ki, bu barədə "Yeni Şafak" qəzeti yazıb. Məlumata görə, Suriyanın müdafiə naziri Murhaf Əbu Kəsra və Baş Qərargah rəisi Əli əl-Naasan ilə görüşlər keçirilib. Tərəflər regional məsələləri və Suriya ordusu ilə əməkdaşlıq istiqamətində addımları müzakirə ediblər.

Bundan əlavə, Türkiyə nümayəndə heyəti Suriya ordusunun hərbi obyektlərinə baxış keçirib.

## "Qafqazda vəziyyət qeyri-sabit olaraq qalır" - KTMT

***"Qafqaz regionunda vəziyyət qeyri-sabit olaraq qalır".***

"Unikal" xəbər verir ki, bu barədə KTMT-nin müştərək qərargahının rəhbəri Andrey Serdyukov bildirib.

"Qafqaz regionunda vəziyyət qeyri-sabit olaraq qalır və onun tənzimlənməsi prosesi davam edir. Mərkəzi aspekt Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası və sülh müqaviləsinin imzalanmasına hazırlıq olaraq qalır", - Serdyukov qeyd edib.

***Ağarza Elçinoğlu***

## Kremldən təyyarə qəzası ilə bağlı başsağlığı

***Kreml Vaşinqtonda baş verən təyyarə qəzasında həlak olanların yaxınlarına başsağlığı verir.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

"Bu gün Vaşinqtondan pis xəbər gəldi, biz bu təyyarə qəzasında həlak olanların ailələrinə, qohumlarına və həmvətənlərimizə başsağlığı veririk", - deyə o qeyd edib.

***Ağarza Elçinoğlu***

## HAMAS daha 3 girovu Beynəlxalq Qızıl Xaç Komitəsinə təhvil verib

***HAMAS daha 3 girovu Beynəlxalq Qızıl Xaç Komitəsinə təhvil verib.***

Bu barədə İsrail mediası bildirib. Məlumata görə, onların azadlığa buraxılması müqabilində İsrail 110 fələstinli məhbusu həbsdən azad edəcək. Beş Tailand vətəndaşının da bu gün azad ediləcəyi bildirilir.

HAMAS və İsrail arasında üçüncü girov mübadiləsi Qəzzada öldürülmüş HAMAS lideri Yəhya Sinvarın evinin qarşısında keçirilir.

2023-cü il oktyabrın 7-də HAMAS Qəzza zolağından İsrail ərazisinə keçib, sərhəd yaşayış məntəqələrinin sakinləri öldürülüb, 250-yə yaxın adam girov götürülüb.

Qəzza zolağında atəşkəs yanvarın 19-dan qüvvəyə minib. Həmin gün HAMAS üç israilli qadının da olduğu ilk girovu azad edib. İsrail buna cavab olaraq 90 fələstinli məhbusu həbsdən azad edib. Yanvarın 25-də HAMAS 4 girovu Qəzza zolağından azad edib. İsrail də öz növbəsində 200 fələstinlini həbsdən azad edib.

# "Azərbaycanla normallaşma prosesini başa çatdırmağa hazırıq" - Mirzoyan

***"Biz Cənubi Qafqazdan danışanda Azərbaycandan danışmaya bilmərik. Ermənistanın bu kontekstdə "Sülh yollarının kəsişməsi" təşəbbüsündən hamınız xəbərdarsınız ki, bu da 3 ölkə arasında, o cümlədən daha böyük regionda fəal əməkdaşlığı nəzərdə tutur. Bu kontekstdə münasibətlərin tənzimlənməsi çərçivəsində Azərbaycana təklif vermişik".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bu gün İrəvanda Gürcüstanın xarici işlər naziri Maka Bojçorişvili ilə birgə mətbuat konfransında deyib.

Nəqliyyat rabitəsinə toxunan Mirzoyan Cənubi Qafqazın bu baxımdan böyük potensiala malik olduğunu vurğulayıb: "Biz Azərbaycanla münasibətlərimizin bütün istiqamətlərdə normallaşdırılması prosesini başa çatdırmağa və yekunlaşdırmağa hazırıq".

Sərhədin demarkasiyası prosesinə toxunan nazir vurğulayıb ki, bu baxımdan ölkə



təkcə Ermənistanla Azərbaycan arasında deyil, həm də Ermənistanla Gürcüstan arasında sərhədin demarkasiyası prosesini davam etdirmək və başa çatdırmaq iradəsi və öhdəliyi var.

***Ağarza Elçinoğlu***

## "Gürcüstanı itirdiyimizə görə təəssüflənirik" - AŞPA prezidenti

***Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti Teodoros Russopulos Gürcüstanın təşkilatdan çıxmaq qərarından təəssüfləndiyini bildirib.***

"Unikal" xəbər verir ki, bu barədə "European Truth" məlumat yayıb.

O, assambleyanın gürcü nümayəndə heyətinə qarşı sanksiyalar tətbiq edən qərarına cavab olaraq Gürcüstanın AŞPA ilə münasibətlərini



dayandırdığını təsdiqləyib.

"Mən Gürcüstan nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiyasına səs verdikdən sonra Avropa Şurası Parlament Assambleyasından çıxmaq qərarından təəssüflənirəm", - deyə AŞPA prezidenti qeyd edib.

Bir gün əvvəl Gürcüstan Avropa Şurası Parlament Assambleyasında respublika hakimiyyətini yeni parlament seçkiləri keçirməyə çağıran qəbul edilmiş qətnamə ilə əlaqədar işini dayandırıb.

***Gülayə Mecid***

# Menendez 11 il müddətinə həbs edildi



***ABŞ-nin keçmiş senatoru Bob Menendez rüşvətxorluq və korrupsiya ittihamı ilə 11 il müddətinə azadlıqdan məhrum edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Amerika mətbuatı yazıb.

Keçmiş senator ona qarşı işin siyasi təqib olduğunu bildirib: "Bu, siyasi məhkəmədir".

2024-cü ilin iyulunda münsiflər heyəti Menendezi rüşvətxorluq, qəsb, ədalət mühakiməsinə mane olmaq və xarici agent kimi fəaliyyət göstərmək kimi 16 maddə üzrə ittiham etdi. Xüsusilə, senator Misirə hərbi təchizat və yardımın koordinasiyasını asanlaşdıracağını vəd edib.

***Ağarza Elçinoğlu***

## Zelenski müəllimlərin də cəbhəyə göndərilməsini təklif etdi

***Ukrayna prezidenti Volodimir Zelenski ölkənin hərbi lisey və universitetlərindən, eləcə də bu cür təhsil müəssisələrindən müəllimlərin cəbhəyə göndərilməsini təklif edib.***

"Unikal" xəbər verir ki, o, bu barədə hərbi universitetlərin birində çıxışı zamanı danışıb.

Zelenski vurğulayıb ki, zabit olmaq üçün təhsil alan bütün ukraynalı "oğlan və qızlar" cəbhədə nə baş verdiyini, müasir silahlı münaqişənin nə olduğunu bilməlidirlər.

"Deməli, siz onlara dərs deyən müvafiq təcrübəyə malik olmalı, cəbhədə olmalısınız", - deyə Ukrayna lideri bildirib.



O qeyd edib ki, əsl müharibənin nə olduğunu kitablardan məlumatla deyil, yalnız bu yolla öyrətmək olar. Ukrayna prezidenti müəllimlərin cəbhəyə göndərilməsinin həqiqətən nəzərdə tutulub-tutulmadığını dəqiqləşdirməyib.

***Gülayə Mecid***



## Pentaqon təyyarə qəzası ilə bağlı araşdırma başlatdı

***"Müdafiə Nazirliyi və ABŞ Ordusu dərhal Vaşinqtonda qəzaya uğrayan təyyarə ilə bağlı araşdırmaya başlayıb".***

"Unikal" xəbər verir ki, bu barədə Pentaqon rəhbəri Pit Heqset məlumat yayıb.

Onun sözlərinə görə, axtarış-xilasetmə əməliyyatları davam edir.

04_27 IYUl-QARA.qxd 1/31/2025 12:08 AM Page 16



# Çempionlar Liqasında pley-off mərhələsinin püşkatmasının detalları

***Yanvarın 31-də UEFA Çempionlar Liqasının pley-off mərhələsinin püşkatma mərasimi keçiriləcək.***

"Unikal" xəbər verir ki, Bakı vaxtı ilə saat 15:00-da başlayacaq tədbirdə 1/16 finalın cütlükləri bəlli olacaq.

Püşkatmada əsas mərhələdə 9-24-cü yerləri tutan 16 komanda - "Atalanta", "Milan", "Yuventus" (hamısı İtaliya), "Borussiya Dortmund", "Bavariya" (hər ikisi Almaniya), "Real Madrid" (İspaniya), PSV, "Feyenoord" (hər ikisi Niderland), PSJ, "Brest", "Monako" (hamısı Fransa), "Benfika", "Sportinq" (hər ikisi Portuqaliya), "Seltik" (Şotlandiya), "Mançester Siti" (İngiltərə), "Brügge" (Belçika) iştirak edəcək.

Artıq komandaların potensial rəqibləri bəllidir.

"Monako": PSJ və ya "Benfika"



"Brest": PSJ və ya "Benfika"

PSJ: "Monako" və ya "Brest"

"Benfika": "Monako" və ya "Brest"

"Sportinq": "Atalanta" və ya "Borussiya Dortmund"

"Brügge": "Atalanta" və ya "Borussiya Dortmund"

"Atalanta": "Sportinq" və ya "Brügge"

"Borussiya Dortmund": "Sportinq" və ya "Brügge"

"Seltik": "Real Madrid" və ya "Bavariya"

"Mançester Siti": "Real Madrid" və ya "Bavariya"

"Real Madrid": "Seltik" və ya "Mançester Siti"

"Bavariya": "Seltik" və ya "Mançester Siti"

"Feyenoord": "Milan" və ya PSV

"Yuventus": "Milan" və ya PSV

"Milan": "Feyenoord" və ya "Yuventus"

PSV: "Feyenoord" və ya "Yuventus"

Bu raundun oyunları 11-12 və 18-19 fevralda keçiriləcək.

Qeyd edək ki, Liqa mərhələsində ilk 8 yeri tutan kollektivlər - "Liverpul", "Arsenal", "Aston Villa" (hamısı İngiltərə), "İnter" (İtaliya), "Barselona", "Atletiko Madrid" (hər ikisi İspaniya), "Bayer" (Almaniya), və "Lill" (Fransa) isə birbaşa turnirin 1/8 finalına yüksəliblər. Bu mərhələnin püşkatma mərasimi fevralın 21-də, matçları isə 4-5 və 11-12 martda oynanılacaq.



# "Borussiya Dortmund" yeni baş məşqçisini açıqladı

***Türkiyəli mütəxəssis Nuri Şahinlə ötən həftə yollarını ayıran Almaniyanın "Borussiya Dortmund" komandası yeni baş məşqçisini açıqlayıb.***

"Unikal" klubun rəsmi saytına istinadən xəbər verir ki, bu posta xorvatiyalı Noko Kovaç gətirilib. Onunla 2026-cı il iyunun 30-na kimi müqavilə imzalanıb.

Niko Kovaç daha əvvəl Bundesliqa klublarından "Ayntraxt Frankfurt" (2016-2018), "Bavariya" (2018-2019) və "Volfsburq"u (2022-2024) çalışdırıb. Mütəxəssis həmçinin 2013-2015-ci illərdə Xorvatiya millisinin, 2020-2022-ci illərdə isə Fransa təmsilçisi "Monako"nun baş məşqçisi olub.

Bu mövsüm Bundesliqada uğursuz çıxış edən "Borussiya Dortmund" 19 turdan sonra 26 xalla 11-ci sırada qərarlaşıb.

# "Qarabağ" və "Neftçi" cərimələndi

***AFFA İntizam Komitəsinin iclasında Misli Premyer Liqasında XX turunda baş verən neqativ hallar öz hüquqi qiymətini tapıb.***

"Unikal" xəbər verir ki, bu barədə AFFA-nın saytında məlumat yayılıb.

"Araz-Naxçıvan" - "Neftçi" oyununda "Neftçi"nin azarkeşləri tərəfindən stadionda 17 ədəd oturacağın qırılması ilə əlaqədar stadiona dəymiş zərərin "Neftçi" tərəfindən ödənilməsinə qərar verilib.

"Qarabağ" - "Turan Tovuz" oyunu bitdikdən sonra "Qarabağ" klubu AFFA nümayəndəsinin tələblərini yerinə yetirmədiyinə görə 2000 manat cərimə edilib.




# Misli Premyer Liqasında XXI turun hakim təyinatları

***Misli Premyer Liqasının XXI turunda keçiriləcək qarşılaşmalara hakim təyinatları açıqlanıb.***

AFFA-dan "Unikal"a verilən məlumata görə, "Zirə" və "Qarabağ" arasında keçiriləcək mərkəzi oyun Rəvan Həmzəzadəyə tapşırılıb.

**31 yanvar**

16:00. "Kəpəz" - "Sabah"
Hakimlər: Fərid Hacıyev, Zöhrab Abbasov, Asiman Əzizli, Əli Əliyev
VAR: Nicat İsmayıllı
AVAR: Namik Hüseynov
Hakim-inspektor: Vüsal Əliyev
AFFA nümayəndəsi: Namiq Əliyev
Tovuz şəhər stadionu.

18:30. "Neftçi" - "Şamaxı"
Hakimlər: Rəşad Əhmədov, Akif Əmirəli, Rahil Ramazanov, Kamranbəy Rəhimov
VAR: Elçin Məsiyev
AVAR: Elşad Abdullayev
Hakim-inspektor: Feyzulla Feyzullayev
AFFA nümayəndəsi: Asif Əliyev
"Neftçi Arena".

**1 fevral**

16:00. "Turan Tovuz" - "Səbail"
Hakimlər: Tural Qurbanov, Vüsal Məmmədov, Rəhman İmami, Elvin Bayramov
VAR: Rauf Allahverdiyev
AVAR: Kamran Bayramov
Hakim-inspektor: Babək Quliyev
AFFA nümayəndəsi: Nəriman Axundov
Tovuz şəhər stadionu

18:30. "Sumqayıt" - "Araz-Naxçıvan"
Hakimlər: Cavid Cəlilov, Müslüm Əliyev, Eyyub İbrahimov, Kamran Əliyev
VAR: Əliyar Ağayev
AVAR: Zeynal Zeynalov
Hakim-inspektor: Ömər Paşayev
AFFA nümayəndəsi: Anar Şixəliyev
Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu.

**2 fevral**

19:00. "Zirə" - "Qarabağ"
Hakimlər: Rəvan Həmzəzadə, Cəmil Quliyev, Şirmamed Mamedov, Elçin Məsiyev
VAR: Rauf Cabbarov
AVAR: Pərvin Talıbov
Hakim-inspektor: Anar Salmanov
AFFA nümayəndəsi: Kifayət Mustafayeva
Zirə İdman Kompleksi.



# Azərbaycan millisi iki yoxlama oyunu keçirəcək

***17 yaşadək qadın futbolçulardan ibarət Azərbaycan milli komandası 1-4 fevral tarixlərində Milli Komandaların Təlim-Məşq Mərkəzində təlim-məşq toplanışı keçəcək.***

"Unikal" xəbər verir ki, bu barədə AFFA-nın mətbuat xidməti məlumat yayıb.

U-17 komandası fevralın 5-dən 10-dək Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində baş tutacaq hazırlıq çərçivəsində 2 yoxlama oyunu keçirəcək. Millimiz fevralın 7-də və 10-da Birləşmiş Ərəb Əmirliklərinin müvafiq yaş qrupundan ibarət komandası ilə üz-üzə gələcək. BƏƏ Futbol Akademiyasında təşkil olunacaq hər iki matç Bakı vaxtı ilə saat 19:30-da başlayacaq.

# Şkriniar "Fənərbaxça" ilə müqavilə İMZALADI

***Türkiyə Super Liqası komandalarından "Fənərbaxça" heyətini gücləndirməyə davam edir.***

"Unikal" xəbər veriri ki, daha əvvəl "Fənərbaxça"ya transferi açıqlanan 29 yaşlı slovakiyalı müdafiəçi Milan Şkriniar ilə rəsmi müqavilə imzalanıb.

Bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Müdafiəçi mövsümün sonuna kimi icarə əsasında "sarı-lacivərdlilər"in şərəfini qoruyacaq.

Xatırladaq ki, bir müddət əvvəl "Fənər" "Aston Villa"dan Dieqo Karlosu və "Əl-Nəssr"dən Anderson Talişkanı heyətinə qatmışdı.

Qeyd edək ki, Şkriniar bu mövsüm PSJ-nin heyətində 5 matçda iştirak edib.

